

Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır

# ŞƏRQ qapısı

Qəzet 1921-ci ildən çıxır

Təsisçi: Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti

Sayı: 232 (21.133)

5 dekabr 2014-cü il, cümə

Gündəlik ictimai-siyasi qəzet

www.serqqapisi.az

Qiyməti 20 qəpik


## Dövlət Baytarlıq Xidmətinin maddi-texniki bazası gücləndirilir





Daxili bazarda məhsul bolluğunun yaradılmasında, əhalinin zəruri ərzaq məhsullarına olan tələbatının daha dolğun şəkildə ödənilməsində baytarlıq xidmətinin mühüm rolu vardır. Ona görə də muxtar respublikada baytarlıq xidmətinin təşkili istiqamətində ardıcıl tədbirlər həyata keçirilir, Dövlət Baytarlıq Xidmətinin maddi-texniki bazası mütəmadi olaraq gücləndirilir.

Dekabrın 4-də Naxçıvan Muxtar Respublikası Dövlət Baytarlıq Xidmətinə yeni laboratoriya cihazları və süni mayalanma avadanlıqları təqdim olunmuşdur.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov tədbirdə iştirak etmişdir.

Dövlət Baytarlıq Xidmətinin rəisi Əbil Əbilov çıxış edərək demişdir ki, muxtar respublikada həyata keçirilən tədbirlər baytarlıq xidmətini də əhatə etmiş, maddi-texniki baza xeyli gücləndirilmişdir. Son illər Şərur, Sədərək, Babək, Şahbuz rayon baytarlıq idarə və laboratoriyaları üçün yeni binalar tikilmiş, laboratoriyalar yeni avadanlıqlarla təmin olunmuşdur. Dövlət Baytarlıq Xidməti, Elmi-Tədqiqat Baytarlıq Mərkəzi, Mərkəzi Baytarlıq Laboratoriyası, Naxçıvan Şəhər Baytarlıq İdarəsi və Naxçıvan Muxtar Respublikası Zoobaytar Təchizat İdarəsi üçün binalar yenidən qurulmuş, dərmanların saxlanılması üçün soyuducu kameralar quraşdırılmışdır.

Qeyd olunmuşdur ki, Dövlət Baytarlıq Xidməti tərəfindən bu il peyvəndləmə tədbirləri görülmüş, ümumilikdə, 11 min 599 obyektdə epizootiya əleyhinə dezinfeksiya işləri aparılmışdır. Xidmətin ekspertiza və bakterioloji laboratoriyaları tərəfindən patoloji nümunələr götürülərək infeksion xəstəliklərə görə müayinə olunmuş, 138 halda xəstəlik qeydə alınmış və aidiyyəti tədbirlər həyata keçirilmişdir. 2014-cü ilin 11 ayı ərzində muxtar respublikada Dövlət Baytarlıq Xidmətinin süni mayalanma texnikləri tərəfindən 6793 baş mal-qarada süni mayalanma aparılmış, mayalanmış mal-qaradan bu günə qədər 6020 baş sağlam bala alınmışdır. Həmçinin Elmi-Tədqiqat Baytarlıq Mərkəzinin fəaliyyəti mütəmadi olaraq baytarlıq xidmətinin apardığı tədbirlərlə əlaqələndirilir. Hazırda mərkəz tərəfindən 4 elmi-tədqiqat mövzusu üzrə işlər aparılır, 3 mövzu üzrə ixtira işləri gündəlik baytarlıq fəaliyyətində tətbiq olunur. Əbil Əbilov yaradılan şəraitə və göstərilən qayğıya görə Dövlət Baytarlıq Xidmətinin əməkdaşları adından minnətdarlıq etmişdir.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov muxtar respublikada baytarlıq xidmətinin təşkili sahəsində göstərdikləri səylərə və işlərində fərqləndiklərinə görə baytarlıq xidmətinin əməkdaşlarına təşəkkür edərək demişdir: "Ölkəmizdə kənd təsərrüfatının inkişafına lazımi dövlət qayğısı göstərilir. Bu sahə üzrə həyata keçirilən tədbirlər, xüsusilə subsidiyaların verilməsi, maddi-texniki bazanın gücləndirilməsi, yeni texnikaların, məhsuldar toxum sortlarının və cins mal-qaranın alınıb gətirilməsi, torpaq mülkiyyətçiləri və fermerlər üçün hərtərəfli şəraitin yaradılması kənd təsərrüfatının inkişafına stimul vermişdir".

Ali Məclisin Sədri demişdir: "Hər bir ölkədə ərzaq təhlükəsizliyinin təmin olunması kənd təsərrüfatının inkişafından, kənd təsərrüfatının inkişafı isə əhatə etdiyi sahələrdə fəaliyyətin düzgün təşkilindən asılıdır. Belə sahələrdən biri də baytarlıq xidmətidir. Baytarlıq xidmətini düzgün təşkil etmədən, bu sahə üzrə qarşıya qoyulan vəzifələri yerinə yetirmədən əhalinin təhlükəsiz ərzaq məhsulları ilə təminatını həyata keçirmək mümkün deyil. Çünki sağlam ərzaq məhsullarının istehsalı ərzaq təhlükəsizliyinin təmin olunmasında başlıca şərtdir. Sağlam ərzaq məhsulları ilə təminat insanların sağlamlığına, sağlam insanlar isə ölkənin inkişafına xidmət edirlər. Ona görə də əhalinin sağlamlığının qorunması baytarlıq xidmətinin inkişafını zəruri edir".

Ali Məclisin Sədri demişdir: "Ölkəmizdə, eləcə də muxtar respublikamızda baytarlıq xidmətinin təşkili istiqamətində ardıcıl tədbirlər həyata keçirilir. Bu gün muxtar respublikada Dövlət Baytarlıq Xidməti, Elmi-Tədqiqat Baytarlıq Mərkəzi, 170 sahə baytarlıq məntəqəsi və 9 baytar sanitar ekspertiza laboratoriyası fəaliyyət göstərir. Muxtar respublikada bir inzibati ərazi dairəsi üzrə nümayəndəlik və bir baytarlıq məntəqəsi prinsipi əsas götürülərək bütün yaşayış məntəqələri baytarlıq xidməti ilə əhatə olunmuşdur. Kənd mərkəzlərində istifadəyə verilən baytarlıq məntəqələri lazımi avadanlıqlarla təmin olunmuş, süni mayalandırma tədbirlərinin aparılması üçün hərtərəfli şərait yaradılmışdır. Həyata keçirilən bu tədbirlər muxtar respublikada mal-qara arasında xəstəliklərin qarşısının alınmasına və sağlam ərzaq məhsullarının istehsalına səbəb olmuşdur. Hazırda muxtar respublikada 110 min baş iribuynuzlu, 690 min başa yaxın xırdabuynuzlu, 68 min arı ailəsi saxlanılır. Bu da baytarlıq xidmətinin nümunəvi təşkilini zəruri edir. Dövlət Baytarlıq Xidmətinin əməkdaşları yaradılan şəraitdən düzgün istifadə etməli, bundan sonra da qarşıya qoyulan vəzifələri layiqincə yerinə yetirməlidirlər".

"Əgər səhiyyə xidməti cəmiyyətin xəstələnmiş üzvlərini əhatə edirsə, baytarlıq xidməti cəmiyyətin bütün üzvlərinin sağlamlığının qorunmasına xidmət edir. Çünki sağlam ərzaq məhsulları ilə təminat sağlam həyat tərzi deməkdir", – deyən Ali Məclisin Sədri muxtar respublikada baytarlıq xidmətinin təşkili sahəsində qarşıya qoyulan vəzifələrə nail olunduğunu bildirmiş, bir daha kollektivi təbrik etmişdir.

Sonra Ali Məclisin Sədri Dövlət Baytarlıq Xidməti üçün alınmış yeni avadanlıq və ləvazimatlara baxmışdır.

Məlumat verilmişdir ki, baytarlıq laboratoriyasının maddi-texniki bazasının gücləndirilməsi məqsədilə 27 adda müxtəlif avadanlıq və 26 adda müxtəlif ləvazimat, süni mayalanma tədbirlərinin genişləndirilməsi üçün 15 ədəd yedəkli motosiklet, 32 ədəd süni mayalama çantası və 10 adda müxtəlif ləvazimatlar alınıb gətirilmişdir. Yeni alınan laboratoriya cihazları, süni mayalama avadanlıqları və texnikalar heyvandarlıq sahəsinin intensiv inkişafına, müasir texnologiyalardan istifadəyə, o cümlədən baytarlıq sahəsində elmi nailiyyətlərin və qabaqcıl təcrübənin tətbiqinə imkan verəcəkdir. Bioloji mikroskoplar, sanitar ekspertiza avadanlıqları və digər ləvazimatlar heyvandarlıq məhsullarının fiziki-kimyəvi xassəsinin və bioloji strukturlarının yoxlanılmasında, baytarlıq sahəsində biotəhlükəsiz tədbirlərin həyata keçirilməsində mühüm əhəmiyyət daşıyır.

Ali Məclisin Sədri muxtar respublikanın rayonlarında fəaliyyət göstərən baytarlıq idarələrinə verilən süni mayalandırma avadanlıq dəstlərini texniklərə təqdim etmiş, Naxçıvan Muxtar Respublikası Dövlət Baytarlıq Xidmətinin işdə fərqlənən bir qrup əməkdaşına hədiyyələr vermişdir.

Baytarlıq xidməti əməkdaşları ilə söhbət zamanı Ali Məclisin Sədri Dövlət Baytarlıq Xidmətinin laboratoriyalarında muxtar respublikanın ali və orta ixtisas məktəblərində baytarlıq ixtisası üzrə təhsil alan tələbələrin təcrübə keçməsi, yerlərdə maarifləndirmə işlərinin aparılması və süni mayalandırma tədbirlərinin genişləndirilməsi barədə müvafiq tapşırıqlar vermişdir.

**Naxçıvan Muxtar Respublikası Ali Məclisinin mətbuat xidməti**

## Heydər Əliyev Universitetinin növbəti məşğələsi keçirilib

*Naxçıvan Dövlət Universitetində Heydər Əliyev Universitetinin "Heydər Əliyev və Naxçıvan" mövzusunda növbəti məşğələsi keçirilib.*

Əvvəlcə ulu öndər Heydər Əliyevin əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilib.

Tədbirdə çıxış edən universitetin rektoru, AMEA-nın müxbir üzvü Saleh Məhərrəmov bildirib ki, xalqımızın ümummilli lideri Heydər Əliyevin sarsılmaz polad iradəsi və qətiyyəti, xalqın tərəqqisi yolunda yorulmaz, fədakar əməyi sayəsində müasir Azərbaycanın bünövrəsi qoyulub. Natiq Azərbaycan xalqının ümummilli lideri, görkəmli dövlət xadimi Heydər Əliyevin zəngin nəzəri irsində və möhtəşəm fəaliyyətində Naxçıvanda siyasi fəaliyyət göstərdiyi dövrün mühüm əhəmiyyətə malik olduğunu qeyd edib.

Rektor bildirib ki, Azərbaycan bu gün öz tarixinin ən qüdrətli dövrünü yaşayır. Ulu öndər Heydər Əliyevin ideyalarını yaradıcılıqla həyata keçirən Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin rəhbərliyi ilə bu gün ölkəmiz daha işıqlı gələcəyə doğru inamla addımlayır. Naxçıvan Muxtar Respublikasında da ulu öndərimizin yolu uğurla davam etdirilir. Blokadada olmasına baxmayaraq, bu qədim Azərbaycan torpağı özünün əsl inkişafına qovuşub.



Məşğələdə "Heydər Əliyev və Naxçıvan" mövzusunda məruzə ilə çıxış edən universitetin tərbiyə işləri üzrə prorektoru, professor Məmməd Rzayev ümummilli lider Heydər Əliyevin həyatı və siyasi fəaliyyəti haqqında danışaraq bildirib ki, müstəqil Azərbaycan xalqımızın böyük oğlu Heydər Əliyevin şah əsəridir. Ümummilli liderin muxtar respublikadakı siyasi fəaliyyətindən geniş söhbət açan prorektor vurğulayıb ki, ulu öndər Naxçıvanın ərazi bütövlüyünün və muxtariyyətinin qorunmasında, siyasi-iqtisadi əlaqələrinin inkişafında, Azərbaycançılıq ideologiyasının və müasir milli dövlətçilik ənənələrinin yaşadılmasında əvəzsiz xidmətlər göstərib.

Qeyd edilib ki, ümummilli lider Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri vəzifəsində çalışarkən nəinki Naxçıvan torpağının toxunulmazlığı, bütövlükdə, Azərbaycanın tərəqqisi, diplomatik münasibətlərin inkişafı və digər taleyüklü məsələlərlə bağlı mühüm siyasi qərarlar qəbul edib. Məhz dahi şəxsiyyət Heydər Əliyevin rəhbərliyi sayəsində Naxçıvan Muxtar Respublikası Azərbaycanın dövlət müstəqilliyinin əldə olunmasında və qorunmasında əhəmiyyətli tarixi-siyasi rol oynayıb.

**Mina QASIMOVA**

# Azərbaycan XXI əsrin və üçüncü minilliyin ayrıcında

## *Ümummilli lider Heydər Əliyevin yeni 2001-ci il, yeni əsr və üçüncü minillik münasibətilə Azərbaycan xalqına müraciəti*

**Ulu öndər Heydər ƏLİYEV:** ***Bu gün tam əminliklə söyləmək olar ki, Azərbaycanın dövlət suverenliyi və iqtisadi müstəqilliyi, sistemli şəkildə artan xarici iqtisadi əlaqələri, dünya iqtisadiyyatına get-gedə daha dərindən inteqrasiya olunması hələ 1970-1985-ci illərdə təməli qoyulmuş xalq təsərrüfatı potensialına əsaslanır.***

*(Əvvəli qəzetin ötən sayında)*

**Üçüncü mərhələ** 1920-ci ilin aprelindən başlanır. Azərbaycanda Sovet hakimiyyəti qurulandan sonra da, o, öz müstəqilliyini saxlamış, aprelin 30-da Rusiya ilə Azərbaycan arasında hərbi-iqtisadi müqavilə imzalanmışdı. Azərbaycanda xarici ölkələrin nümayəndəlikləri, o cümlədən Rusiya konsulluğu da fəaliyyət göstərirdi. Azərbaycanın bu dövrdə yürütdüyü uğurlu siyasətin təzahürlərindən biri kimi Azərbaycanın ərazi bütövlüyünün qorunması istiqamətində aparılan işlər, Moskva və Qars müqavilələri, Genuya konfransı sayıla bilər. 1920-ci ildə Bakıda Şərq xalqlarının birinci qurultayı keçirildi. Bolşeviklər Şərq ölkələrinin yeni inqilabi dəyişikliklərə can atmaq arzusunda olmadıqlarını gördükdən sonra öz siyasi məqsədləri naminə Azərbaycanın müstəqilliyinin qorunub saxlanması ideyasından əl çəkdilər. 1921-ci ildə Zaqafqaziya Federasiyasının yaradılması artıq müstəqilliyin itirilməsi yolunda atılan ilk addım oldu. 1922-ci il dekabrın 30-da SSRİ-nin yaranması isə Azərbaycanın müstəqilliyinə son qoydu. O, bir sıra dövlətçilik atributlarını, o cümlədən bayraq, gerb, himn və Konstitusiyasını qoruyub saxlamasına baxmayaraq, bir çox sahələrdə özünün beynəlxalq hüququn subyekti olmaq statusunu itirmişdi.

1922-1991-ci illər Azərbaycanda Sovet hakimiyyətinin qurulması və 70 il ərzində Azərbaycanın Sovet hakimiyyəti, sovet dövləti çərçivəsində yaşaması dövrünü əhatə edir. Bu illərdə Azərbaycanda çox zəngin iqtisadi və intellektual potensial yaranmışdır. Bu potensialı xarakterizə etmək üçün bəzi faktlara müraciət edək.

20-30-cu illərdə Azərbaycan xalqının qəhrəman əməyi ilə neft sənayesində böyük yüksəliş əldə edilmiş, sənayenin yeni sahələri əmələ gəlmiş, elektrik stansiyaları tikilmiş, suvarma kanalları çəkilmiş, kənd təsərrüfatı dirçəldilmişdi. Azərbaycan ellikcə savadlanmış, orta ümumtəhsil məktəblərinin, xəstəxana və poliklinikaların, ali və orta ixtisas məktəblərinin, elmi-tədqiqat və mədəni-maarif müəssisələrinin şəbəkəsi xeyli genişləndirilmişdi.

1937-ci ildə Azərbaycan SSR özünün Konstitusiyasını qəbul edir və mədəni inqilab adı altında geniş maariflənmə proqramlarını həyata keçirir. Təhsildə islahatlar gerçəkləşdirilir. Artıq İkinci Dünya müharibəsi ərəfəsində Azərbaycanın dörd mindən çox ibtidai məktəbi, 16 ali məktəbi var idi. 1938-ci ildə SSRİ Elmlər Akademiyasının Azərbaycan filialı yaradıldı. Azərbaycanda teatr şəbəkəsi formalaşdı. Artıq 1940-cı ildə ölkədə 18 teatr fəaliyyət göstərirdi. 1937-ci ildə Üzeyir Hacıbəyovun yaratdığı “Koroğlu” operası Azərbaycan mədəniyyətində böyük bir hadisəyə çevrildi. Bütün bu uğurlarla yanaşı, 1937-1938-ci illərin repressiyaları Azərbaycan elminə və mədəniyyətinə böyük zərbələr vurdu. Repressiya illərində 50 mindən artıq adam güllələnmiş, 100 mindən çox insan Sibir və Qazaxıstana sürgün edilmişdi. Hüseyn Cavid, Mikayıl Müşfiq, Tağı Şahbazi, Salman Mümtaz kimi böyük şəxsiyyətlər məhv edilmişdi.

İkinci Dünya müharibəsi illəri bəşəriyyətin XX əsrdə üzləşdiyi ən ağır və dəhşətli dövr olmuşdur. İtaliyada və Almaniyada meydana çıxmış faşizm hərəkatı təkcə həmin ölkələrin xalqlarının deyil, bütün bəşəriyyətin həyatını böyük təhlükəyə məruz qoydu. Faşizm ideologiyası qısa müddət ərzində bir çox ölkələrin iqtisadi imkanlarından istifadə etməklə real dağıdıcı qüvvəyə çevrildi, dünya “olum, ya ölüm” dilemması qarşısında qaldı. XX əsrin ən mühüm dərslərindən biri də o oldu ki, dünya dövlətləri öz aralarındakı siyasi, ideoloji, iqtisadi fərqlərə baxmayaraq, bu ümumi təhlükə qarşısında kollektiv səylər göstərilməsinin zərurətini dərk edə bildilər. Beləliklə də, dünya xalqlarının güclü antifaşist birliyi yarandı. Yalnız bunun sayəsində, antifaşist qüvvələrin fədakarlığı nəticəsində bəşəriyyəti bu böyük təhlükədən, ağır faciədən xilas etmək mümkün oldu. Biz fəxr edirik ki, dünyanın bu taleyüklü probleminin həll olunmasında – faşizm üzərində qələbədə Azərbaycan xalqının da mühüm payı olmuşdur.

Azərbaycan xalqı İkinci Dünya müharibəsində həm döyüş meydanlarında, həm də “arxa cəbhə”də əsl şücaət və əzmkarlıq nümunələri göstərmişdir. Müharibə başlanandan keçən qısa müddət ərzində respublika ərazisində 87 qırıcı batalyon, 1124 özünümüdafiə dəstəsi təşkil edilmişdi. 1941-1945-ci illərdə respublikanın 600 mindən çox oğlan və qızı cəbhəyə getmişdir. Azərbaycan diviziyaları Qafqazdan Berlinədək şanlı döyüş yolu keçdilər. Azərbaycandan 130-a qədər adam Sovet İttifaqı Qəhrəmanı adına, 30 nəfər azərbaycanlı döyüşçü isə “Şöhrət” ordeninin hər üç dərəcəsinə layiq görüldü. 170 mindən çox azərbaycanlı əsgər və zabit SSRİ-nin orden və medalları ilə təltif edildi. İki dəfə Sovet İttifaqı Qəhrəmanı Həzi Aslanov, Sovet İttifaqı qəhrəmanları İsrafil Məmmədov, Aslan Vəzirov, Adil Quliyev, Ziya Bünyadov, Gəray Əsədov, Məlik Məhərrəmov, Mehdi Hüseynzadə, generallar Mahmud Əbilov, Akim Abbasov, Tərlan Əliyarbəyov, Hacıbaba Zeynalov və bir çox başqaları öz qəhrəmanlıqları ilə xalqımızın şanlı tarixinə yeni səhifələr yazdılar.

Respublikada iqtisadiyyatın hərbi qaydada yenidən qurulması sahəsində böyük işlər görüldü. Yüngül toxuculuq və yeyinti sənayesi tamamilə cəbhə üçün məhsul istehsalına keçdi. Qısa müddət ərzində Bakı döyüşən ordunun mühüm cəbbəxanalarından birinə çevrildi. 1942-ci ildə Bakıda 130 növ müxtəlif silah, hərbi sursat istehsal edilirdi. Böyük çətinliklərə baxmayaraq, neftçilər fədakarlıqla çalışır, cəbhəni və iqtisadiyyatın bütün sahələrini yanacaqla təmin edirdilər. Akademik Yusif Məmmədəliyevin rəhbərliyi ilə aviasiya benzini istehsalının yeni texnologiyası hazırlandı, Azərbaycanda yüksək oktanlı benzin istehsalına başlandı. Elə 1941-ci ildə neftçilərimizin fədakar və gərgin səyləri nəticəsində Azərbaycanın bütün tarixində ən böyük həcmdə – 23,5 milyon ton neft hasil olundu ki, bu da ittifaqda çıxarılmış neftin 71,4 faizini təşkil edirdi. Azərbaycan neftçiləri müharibə illərində ölkəyə 75 milyon ton neft, 22 milyon ton benzin və başqa neft məhsulları verdilər. Mübaliğəsiz demək olar ki, İkinci Dünya müharibəsində faşizm üzərində qələbənin əldə edilməsində Bakı nefti həlledici amillərdən biri olmuşdur. Müharibənin ağırlığının böyük bir hissəsini öz üzərinə götürmüş sovet ordusunun dənizdə, quruda və havada düşmən üzərində üstünlük qazanmasında Bakı nefti misilsiz rol oynamışdır. Təkcə bu faktı qeyd etmək kifayətdir ki, o dövrdə hər beş təyyarə, tank və avtomaşından dördü Bakı mədənlərindən çıxarılaraq Bakının neft emalı zavodlarında istehsal olunmuş benzinlə işləyirdi.

İkinci Dünya müharibəsi əyani şəkildə bir daha təsdiq etdi ki, Azərbaycan xalqı ən ağır sınaqlardan üzüağ çıxmağa, misilsiz şücaət və rəşadət nümunələri göstərməyə qadir olan çox dözümlü və qəhrəman xalqdır.

Müharibədən sonrakı illərdə respublikamız iqtisadiyyat və mədəniyyətin yeni yüksəliş mərhələsinə qədəm qoydu. Artıq 1948-ci ildə respublika sənayesi müharibədən əvvəlki səviyyəni ötmüş, 1960-cı ildə isə 40-cı ildəki səviyyəni 2,8 dəfə üstələyən məhsul buraxılışına nail olmuşdu. Kənd təsərrüfatının məcmu məhsulu bu illərdə 2 dəfə, dəmiryol nəqliyyatının yükdaşımaları 2,9 dəfə, bütün maliyyələşdirmə mənbələri üzrə kapital qoyuluşu 3,8 dəfə artmışdı. Bu illərdə ağır sənayenin neft emalı, kimya və neft kimyası, qara və əlvan metallurgiya, cihazqayırma və elektrotexnika kimi yeni sahələri əmələ gəlmişdi. Energetika və su təsərrüfatı tikintiləri genişlənmiş, kənd təsərrüfatının maddi-texniki bazası möhkəmlənmişdi. Azərbaycan əməkçiləri Rusiya Federasiyasının, eləcə də SSRİ-nin digər respublikalarının iqtisadiyyatının bərpa olunması və inkişafı işində fəal iştirak edirdilər. Respublikanın alim və mütəxəssisləri Cənubi Qafqaz, Tatarıstan və Başqırdıstanda, Qərbi Sibirin Tümen vilayətində yeni iri neft yataqlarının kəşf olunmasına və istismarına əvəzsiz töhfələr vermişdilər.

Müharibədən sonrakı beşilliklər ərzində sovet Azərbaycanının keçdiyi tarixi yolun əhəmiyyətini azaltmadan onu da qeyd etmək vacibdir ki, 60-cı illərdə respublika iqtisadiyyatının inkişafında mənfi meyillər də özünü göstərməyə başlamışdı. Azərbaycan milli gəlirin inkişaf templərinə, sənaye və kənd təsərrüfatı istehsalının həcminə, elmi-texniki tərəqqinin nailiyyətlərinin mənimsənilməsinə görə, ictimai əməyin məhsuldarlığına görə ümumittifaq göstəricilərindən geri qalırdı. İqtisadiyyatdakı çatışmazlıqlar sosial sahədə, əməkçilərin maddi rifah halının yaxşılaşmasındakı problemlərin həllinə mənfi təsir göstərirdi.

Bir sıra obyektiv və subyektiv səbəblərdən Azərbaycanın sosial-iqtisadi cəhətdən uzun müddət geridə qalması müşahidə olunurdu.

1965-ci ildə 1940-cı ilə nisbətən respublikada məcmu ictimai məhsul yalnız 3,6 dəfə, sənaye məhsullarının həcmi 4 dəfə artmışdı, halbuki ölkə üzrə bu göstəricilər müvafiq surətdə 5,7 və 7,9 dəfəyə çatırdı. Azərbaycan Respublikası milli gəlirin həcminə görə ümumittifaq səviyyəsindən 2 dəfə, əsas fondlara görə 1,8 dəfə, kapital qoyuluşu üzrə 1,7 dəfə geri qalırdı. Sənayedə bütün istehsalın ən mühüm səmərəlilik və yekun göstəricisi olan əmək məhsuldarlığı ümumittifaq miqyaslı inkişaf templərindən 1,5 dəfə geri qalırdı.

Əsaslı tikinti sahəsində ciddi çatışmazlıqlara yol verilmişdi. Sənaye müəssisələrinin, yaşayış binalarının, mədəni-məişət obyektlərinin istismara verilməsi üzrə tapşırıqlar müntəzəm olaraq pozulurdu. Bütövlükdə, 60-cı illərdə əsas fondlar 1 milyard rubla qədər kəsirdə qalmışdı ki, bu da 1969-cu ilin başlanğıcında respublikanın bütün əsas fondlarının 10 faizini təşkil edirdi. Sənaye sahələrinin və sosial sferanın potensialının gücləndirilməsi işində əldən verilmiş imkanlar respublikanın 60-cı illərdə sosial-iqtisadi cəhətdən geri qalmasının başlıca səbəbləri idi.

Neft sənayesi, energetika, qara metallurgiya, kimya və neft kimyası sənayesi fasilələrlə işləyir, bir çox sahələrin texniki-iqtisadi göstəriciləri pisləşirdi.

Nəqliyyat kompleksində dəmiryol vaqonlarının normadan artıq boşdayanmaları, gəmilərin yüklənmə-yükboşaltma işində ləngimə çoxalmış, hərəkət heyətlərinin sürəti azalmış, onların yükdaşıma qabiliyyətindən tam istifadə olunmamışdı. Sərnişin nəqliyyatının işində də boşdayanmalar artmışdı ki, bu, əhalinin, xüsusən Bakı şəhərində haqlı şikayətinə səbəb olurdu.

Kənd təsərrüfatında meliorasiya və dəmyə torpaqların suvarılması işində nöqsanlar var idi, kənd təsərrüfatı işlərinin mexanikləşdirilməsi aşağı səviyyədə idi. Aqrotexniki qaydaların pozulması üzündən taxılın, pambığın, tərəvəzin, üzümün, çay yarpağının və başqa bitkilərin məhsuldarlığı aşağı səviyyədə idi.

İstehsal qüvvələrinin yerləşdirilməsi işində kobud yanlışlıqlara yol verilmişdi. İri obyekt və müəssisələrin əksəriyyəti, bir qayda olaraq, Bakı, Sumqayıt şəhərlərində tikilirdi ki, bu da orta və kiçik şəhərlərin əmək ehtiyatlarından səmərəli istifadə olunması dərəcəsini aşağı salır, ölkə əhalisinin paytaxta axışmasına səbəb olur və burada yaşayış evləri və sosial obyektlərlə əlaqədar artıq mövcud olan çətinlikləri daha da ağırlaşdırırdı.

Qətiyyətlə bildirmək olar ki, 60-cı illərdə respublika iqtisadiyyatı, bütövlükdə, dərin və uzunmüddətli böhran mərhələsinə qədəm qoymuşdu. Yaranmış ağır vəziyyətdən çıxış yolu tapılmalı, iqtisadiyyatın inkişafı üçün prinsipial cəhətdən yeni konseptual yanaşma yolları işlənib hazırlanmalı, xalq təsərrüfatında köklü struktur dəyişiklikləri aparılmalı, təsərrüfatçılıq və iqtisadi həvəsləndirmə işində təzə metodlar tətbiq edilməli idi.

Azərbaycanın müasir tarixində 1969-cu ildə dönüş mərhələsinin təməli qoyuldu. Respublikanın dinamik inkişafı üçün kompleks proqramların işlənib hazırlanmasında yorulmaz fəaliyyət, misilsiz təşəbbüskarlıq və nəhəng enerji bütün 70-ci illərin bariz əlamətinə çevrildi.

1970-1985-ci illər Azərbaycanın quruculuq salnaməsinə ən parlaq səhifələr kimi daxil olmuşdur. Baş verən dəyişikliklərin miqyasına, iqtisadi və sosial sahələrdə aparılan dərin struktur islahatlarının xarakterinə, xalqın maddi rifah halının keyfiyyətcə yeni mərhələyə keçirilməsinə görə doqquzuncu, onuncu və on birinci beşilliklər Azərbaycanın yeni tarixində ən mühüm yerləri tutur. SSRİ hökuməti Azərbaycanla əlaqədar respublikada xalq təsərrüfatının hərtərəfli yüksəlişi və intensiv inkişafını nəzərdə tutan beş xüsusi qərar qəbul etmişdi. Azərbaycan xalqı üçün, həqiqətən, tarixi əhəmiyyət daşıyan bu mühüm qərarlar 70-80-ci illər arasında və daha sonrakı perspektivdə ölkənin sosial-iqtisadi inkişafının əsas istiqamətləri üzrə kompleks məsələləri müəyyənləşdirmişdi.

Qəbul olunmuş proqramın həlli yolunda böyük iş aparmağa başlayan fəhlə və kolxozçular, respublika ziyalıları iqtisadiyyat və mədəniyyətin bütün sahələrində xalqın maddi və mənəvi baxımdan artan tələbatlarının təmin olunması işində çox yüksək nəticələr əldə etmişlər. Müharibədən sonrakı dövrdə ilk dəfə olaraq doqquzuncu və onuncu beşilliklər üçün xalq təsərrüfatının inkişaf planları vaxtından əvvəl yerinə yetirilmişdi.

Bu gün tam əminliklə söyləmək olar ki, Azərbaycanın dövlət suverenliyi və iqtisadi müstəqilliyi, sistemli şəkildə artan xarici iqtisadi əlaqələri, dünya iqtisadiyyatına get-gedə daha dərindən inteqrasiya olunması hələ 1970-1985-ci illərdə təməli qoyulmuş xalq təsərrüfatı potensialına əsaslanır.

Sənaye və kənd təsərrüfatı məhsullarının dinamik artan istehsalı, öhdəliklərin vaxtından qabaq və artıqlaması ilə yerinə yetirilməsi, xalq təsərrüfatının bütün sahələrində keyfiyyət göstəricilərinin yüksəlməsi 70-80-ci illərdə Azərbaycanın inkişafının nə qədər dinamik olduğunu əks etdirirdi. Ümumittifaq əmək bölgüsündə respublikanın payı, həmçinin Sovet İttifaqının xarici iqtisadi əlaqələrində onun iştirakı əhəmiyyətli dərəcədə artmışdı.

1985-ci ildə sənayedə əmək məhsuldarlığı 1970-ci illə müqayisədə 2,1 dəfə, kənd təsərrüfatında 1,8 dəfə artmışdı. Ümumittifaq göstəriciləri müvafiq olaraq, 15 və 27 faiz idi. Xalq təsərrüfatında mənfəət, bütövlükdə, 335 faiz artmışdı. Halbuki orta ümumittifaq göstəricilərinə görə, əhalinin hər nəfərinə düşən gəlir cəmi 164 faiz artmışdı.

Respublikanın ən kəskin problemlərindən biri də əmək qabiliyyətli əhalinin ictimai əməyə cəlb olunması, əmək ehtiyatlarından səmərəli istifadə edilməsi idi. Bu sahədə də böyük dəyişikliklər baş vermişdi. Orta və kiçik şəhərlərdə, kənd yerlərində əlavə iş yerləri yaradılması hesabına fəhlə, qulluqçu və kolxozçuların orta illik sayı 813 min nəfər, yaxud 1,5 dəfə artmış və 1985-ci ildə 2360 min nəfərə çatmışdı.

Sənayenin dinamik yüksəlişini təmin etmək üçün iqtisadiyyatda struktur siyasətinin prinsipial şəkildə yeni istiqamətləri işlənib hazırlanmışdı. Bu istiqamətlər sənayenin qabaqcıl və mütərəqqi sahələrinin, ilk növbədə, maşınqayırma kompleksində, kimya və neft kimyasında, əlvan metallurgiyada texniki cəhətdən yeniləşmə və yenidənqurma prosesləri ilə eyni vaxtda neft və qaz hasil edən, neft emal edən sənayenin, energetikanın, qara metallurgiyanın və dağ-mədən sənayesinin genişlənməsini nəzərdə tuturdu.

Azərbaycanın təşəbbüsü ilə ümumittifaq səviyyədə qəbul olunmuş qərarlarla elmi-texniki tərəqqi əsasında respublikanın sənaye bazasının inkişaf etdirilməsində, sənayenin strukturunun təkmilləşdirilməsində, iri cihazqayırma, radiotexnika, elektrotexnika, dəzgahqayırma və avtomobil sənayesi müəssisələrinin yaradılmasında, fəaliyyətdə olan zavodların yenidən qurulmasında və genişləndirilməsində yeni mərhələnin başlanğıcı qoyuldu. Göstərilən qərar respublika ərazisində sənaye müəssisələrinin yerləşdirilməsi işinin köklü surətdə yaxşılaşdırılmasında böyük rol oynadı, şəhər və rayonların kompleks inkişafına, əmək ehtiyatlarından səmərəli istifadə edilməsinə, xalqın rifah halının yaxşılaşmasına kömək göstərdi.

Qəbul olunmuş qərarda nəzərdə tutulan irimiqyaslı dəyişikliklərin həyata keçirilməsi bir çox müəssisələrin əmək kollektivlərindən, elmi-tədqiqat institutlarından, layihə-konstruktor və inşaat-quraşdırma təşkilatlarından, sahə nazirliklərindən və baş idarələrindən böyük yaradıcı səylər tələb edirdi. İttifaq büdcəsindən kapital qoyuluşları ilə təmin olunmaq, xaricdən texnoloji avadanlıqlar alınması üçün valyuta vəsaitlərinin ayrılması, obyektlərin maddi-texniki təchizatına nail olmaqdan ötrü onların mühüm ümumittifaq tikintilərinin siyahısına daxil edilməsi, kadr hazırlığı və bir çox digər olduqca mühüm məsələlər öz həllini tapırdı.

***(Ardı qəzetin növbəti sayında)***

Məhəmməd Tağı Sidqi – 160

# Göy qurşağı

№ 08 “Şərq qapısı”nın ədəbiyyat əlavəsi 5 dekabr 2014-cü il

## Görkəmli pedaqoq, maarifçi-şair Məhəmməd Tağı Sidqinin fəaliyyəti və yaradıcılığı daim yüksək qiymətləndirilib

***Azərbaycanda milli və dünyəvi məktəbin, maarifçilik hərəkatının inkişafına mühüm töhfələr verən, xalq müəllimi kimi böyük şöhrət qazanan Məhəmməd Tağı Sidqi 1892-ci ildə Ordubadda yeni tipli “Əxtər” məktəbi yaratmış, 1894-cü ildə Naxçıvanda “Tərbiyə” məktəbinin əsasını qoymuşdur. Bu məktəblər xalqın maariflənməsində mühüm əhəmiyyət kəsb etmiş, Naxçıvanın bütöv bir ziyalı nəslini yetişdirmişdir.***

*Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin “Görkəmli pedaqoq, maarifçi və şair Məhəmməd Tağı Sidqinin 160 illik yubileyinin keçirilməsi haqqında” 20 avqust 2014-cü il tarixli Sərəncamından*



***XIX əsrin sonları, XX əsrin əvvəllərində Azərbaycanda, eləcə də Naxçıvanda intişar tapan ədəbi-mədəni, maarifçi-realist mühitə xalq müəllimi kimi töhfələr verən Məhəmməd Tağı Sidqi 1854-cü il mart ayının 22-də qədim Naxçıvan diyarının səfalı bölgələrindən biri olan Ordubad şəhərində anadan olub.***

İlk təhsilini Molla Məhəmməd Tağı adlı axundun məktəbində alan M.T.Sidqi Şah Hüseyn Soltan mədrəsəsində təhsilini davam etdirir, klassik Şərq poeziyasını və fəlsəfəsini dərindən mənimsəyir. Həyatını maarifçiliyə və bədii yaradıcılığa həsr edən M.T.Sidqi 1892-ci ildə Hüseyn Sultan Kəngərlinski ilə birlikdə Ordubadda “Əxtər” adlı yeni üsullu məktəb açır. Buradakı “Əncüməni-şüəra” ədəbi məclisinin fəallarından olan şair bir müddət sonra, 1894-cü ildə Naxçıvan şəhərində dini, eyni zamanda dünyəvi elmləri tədris edən “Tərbiyə” adlı məktəb təsis edir. Məktəb ilə yanaşı, M.T.Sidqi teatr sahəsində də uğurlu fəaliyyət göstərir. Belə ki, o, 1894-1899-cu illərdə M.F.Axundzadənin “Müsyö Jordan və Dərviş Məstəli şah” əsəri əsasında hazırlanaraq Naxçıvan teatrında səhnələşdirilmiş eyniadlı tamaşaya quruluş verir.

Görkəmli pedaqoq, maarifçi-şair M.T.Sidqi elmi-pedaqoji dəyərə malik “Nümuneyi-əxlaq”, “Qızlara hədiyyə”, “Müxtəsər coğrafiya risaləsi”, “Ərəb dilinin sərfi-nəhvi”, “Ədəbiyyat”, “Pedaqogika” adlı əsərlərin müəllifidir.

Ədib pedaqoji fəaliyyətlə yanaşı, insanları elmə, maarifə, tərbiyəyə səsləyən, onlarda təhsil almağa maraq oyadan ədəbi yaradıcılıqla da məşğul olub, “Məsnəviyyati-mənəviyyə” adlı mənzumə, “Kəblə Nəsir” mənzum hekayəsini, “Heykəli-insana bir nəzər” ədəbi-fəlsəfi traktatı, 20-dən çox hekayənin cəm olunduğu “Məktəb hekayələri”ni və 300-dən çox qəzəl qələmə alıb.

M.T. Sidqi publisistik yaradıcılıqla da məşğul olub, o zamanın “Tərcüman”, “Əxtər”, “Həblülmətin”, “Kaspi”, “Şərqi-Rus”, “Nasiri” adlı qəzet və jurnallarında məqalələri dərc edilib. Maarif fədaisi ana dilində “Çıraq” adlı qəzet nəşr etdirmək istəsə də, o vaxtkı hökumət məmurları buna imkan vermirlər.

Məhəmməd Tağı Sidqi 1903-cü ildə, 49 yaşında vəfat edir. Naxçıvan şəhərində dəfn olunub.

Məktəbi “cəhalət dərdinin dərmanı, mərifət bağının xiyabanı” adlandıran Sidqinin xatirəsinə dövlətimiz tərəfindən daim ehtiram göstərilib, əsərləri Azərbaycanda maarifçi ədəbiyyatın inkişafında mühüm rol oynayan yaradıcılıq nümunələri kimi yüksək qiymətləndirilib. Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyev Naxçıvanda maarifçi-ədəbi mühitin formalaşmasında Məhəmməd Tağı Sidqinin fəaliyyətini yüksək qiymətləndirərək deyirdi: ***“Naxçıvanda təhsilin, ümumiyyətlə, mədəniyyətin inkişafında mütəfəkkir Məhəmməd Tağı Sidqinin böyük rolu olmuşdur”.***

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbovun 11 mart 2004-cü ildə “Görkəmli pedaqoq, maarifçi və şair Məhəmməd Tağı Sidqinin 150 illik yubileyinin keçirilməsi və xatirəsinin əbədiləşdirilməsi haqqında”, 20 avqust 2014-cü ildə “Görkəmli pedaqoq, maarifçi və şair Məhəmməd Tağı Sidqinin 160 illik yubileyinin keçirilməsi haqqında” və 17 sentyabr 2014-cü ildə “Görkəmli maarifçi Məhəmməd Tağı Sidqinin ev-muzeyinin yaradılması haqqında” imzaladığı sərəncamlar ədibin ömür yoluna dərin ehtiramın, fəaliyyətinə və yaradıcılığına verilən yüksək dəyərin bariz ifadəsidir.

Ali Məclis Sədrinin 11 mart 2004-cü il tarixli Sərəncamı ilə Məhəmməd Tağı Sidqinin maarifçilik, məktəbdarlıq, ədəbiyyat, teatr və mətbuat sahələrindəki əvəzsiz xidmətləri nəzərə alınaraq onun 150 illik yubileyi Naxçıvan Muxtar Respublikasında geniş qeyd edilib, Naxçıvan Dövlət Kukla Teatrına ədibin adı verilib.

“Görkəmli pedaqoq, maarifçi və şair Məhəmməd Tağı Sidqinin 160 illik yubileyinin keçirilməsi haqqında” 20 avqust 2014-cü il tarixli Sərəncamın preambula hissəsində oxuyuruq: “Azərbaycanda milli və dünyəvi məktəbin, maarifçilik hərəkatının inkişafına mühüm töhfələr verən, xalq müəllimi kimi böyük şöhrət qazanan Məhəmməd Tağı Sidqi 1892-ci ildə Ordubadda yeni tipli “Əxtər” məktəbi yaratmış, 1894-cü ildə Naxçıvanda “Tərbiyə” məktəbinin əsasını qoymuşdur. Bu məktəblər xalqın maariflənməsində mühüm əhəmiyyət kəsb etmiş, Naxçıvanın bütöv bir ziyalı nəslini yetişdirmişdir”.

Adıçəkilən sərəncama əsasən, “Görkəmli pedaqoq, maarifçi və şair Məhəmməd Tağı Sidqinin 160 illik yubileyinin keçirilməsi ilə əlaqədar Tədbirlər Planı” təsdiq edilib. Tədbirlər Planına əsasən, M.T.Sidqinin 160 illik yubileyi ilə əlaqədar AMEA Naxçıvan Bölməsi, Naxçıvan Muxtar Respublikasının Təhsil Nazirliyi, Naxçıvan Dövlət Universiteti, Naxçıvan Müəllimlər İnstitutu, Naxçıvan Özəl Universiteti, Naxçıvan Muxtar Respublikasının Yazıçılar Birliyi birgə “Məhəmməd Tağı Sidqi: həyatı və mühiti” mövzusunda elmi konfrans keçirib, təhsil müəssisələrində yubiley tədbirləri reallaşdırılıb, həmçinin təhsil və mədəniyyət müəssisələrində ədibin həyat və fəaliyyətini əks etdirən guşələr yaradılıb, oxucu konfransları təşkil edilib, “Naxçıvan” jurnalının bir nömrəsinin maarifçi-pedaqoqun pedaqoji fəaliyyətinə və ədəbi yaradıcılığına həsr olunması nəzərdə tutulub. Bu gün isə ədibin 160 illik yubileyi dövlət səviyyəsində qeyd olunacaq.

***Elm adamları, təhsil və mədəniyyət işçiləri, ümumilikdə, Naxçıvan ictimaiyyəti digər ədib və ziyalılarımız kimi, maarif fədaisi, şair Məhəmməd Tağı Sidqinin də yubileylərinin müxtəlif elmi-mədəni tədbirlərlə geniş qeyd edilməsini görkəmli pedaqoqun yaratdığı əsərlərə, elm təhsil etməklə nurlanan fəaliyyətinə dövlətimiz tərəfindən verilən yüksək qiymət, onun ömür yoluna göstərilən dərin ehtiram kimi dəyərləndirir.***

Səyyar MƏMMƏDOV

*M.T.Sidqi bədii yaradıcılığa ilk gənclik illərindən başlamışdır. O, rəhbərlik etdiyi “Əncüməni-şüəra” ədəbi məclisində Sədi, Hafiz, Xəyyam, Cami, Nəvai, Nizami və Füzuli kimi klassik şairlərin əsərlərinə nəzirə və bənzətmələr yazır, klassik Azərbaycan və Şərq şairlərinin ədəbi ənənələrini poeziyada davam etdirirdi. Bu ənənələr sonralar Sidqinin lirikasında maarifçilik ünsürləri ilə əvəz olunur. Bu isə onu sübut edir ki, Sidqi XIX əsr Ordubad ədəbi mühitində qəzəl janrını klassik fəlsəfi lirika ənənələrindən uzaqlaşdırmış, ona ictimai-realist və maarifçi məzmun vermişdir. Şairin maarifçi-realist üslubda yazılmış bir sıra qəzəllərində millət dərdi, vətən və xalq taleyi problemi əsas və aparıcı mövzuya çevrilir.*

## Görkəmli maarifçi, böyük mütəfəkkir

M.T.Sidqi bir maarifçi-şair kimi xalqın ictimai tərəqqidən və mədəniyyətdən geri qalmasının əsas səbəbini elmsizlikdə və cəhalətdə görürdü.

Açdığı yeni üsullu “Əxtər” məktəbinin Azərbaycan milli təhsili üçün əvəzsiz əhəmiyyətini dərk edən Sidqi öz şagirdlərinə xitabən yazırdı:

*Əcəb xöşbəxt olur hər kəs,*
*Tutub məba bu məktəbdə.*
*Cəhalətdən çıxar hər kim,*
*Edə sükna bu məktəbdə.*

M.T.Sidqinin maarifçi-realist şeir yaradıcılığında onun “Məsnəviyyati-mədəniyyə” adlı tənqidi-realist əsəri də xüsusi əhəmiyyət kəsb edir. Əsər publisist şeir janrında qələmə alınmışdır.

Bu əsər mövzusunun aktuallığı və tənqid hədəflərinin genişliyi baxımından XIX əsr Azərbaycan maarifçi-realist poeziyasında bir yenilik idi.

*Hər kəsin ki başında vətən eşqi olsa,*
*Onun eşqi gözəl eşqlərdəndir.*
*Hər kimin ki aşiqliyi millətpərəstlikdir,*
*Doğrudan da, o, eşq badəsindən məstdir*
*Ki, canı və qəlbi ilə vətən övladına yanır*
*Və vətən övladına elm öyrədir* – (şeirlər farscadan sətri tərcümədir).

M.T.Sidqinin maarifçilik fəaliyyətində onun uşaq ədəbiyyatı sahəsindəki xidmətləri də mühüm yer tutur. “Nümuneyi-əxlaq”, “Qızlara hədiyyə”, “Coğrafiya” Sidqinin tədris üçün qələmə aldığı dərsliklərindən idi. Bu dərsliklərə salınmış imla mətnlərinin içərisində Sidqinin uşaqlar üçün xeyli hekayələri verilmişdir. “Qızlara hədiyyə” dərsliyinə saldığı “Sitarə və xalası”, “Ruqiyyənin söhbəti”, “Övlad məhəbbəti”, “İki bacının söhbəti” kimi hekayələr öz orijinallığı və bədiiliyi ilə seçilən uşaq bədii nəsrinin nümunələri idi.

“Rübabə” hekayəsində Sidqi öz fərdi və milli xüsusiyyətləri ilə başqalarından seçilən bir məktəbli qızın obrazını yaradır. Rübabə adlı bu qız dərs əlaçısı olmaqla yanaşı, gözəl tikiş tikir, xörək bişirir, süfrə başında ədəbərkanla oturub yeyib-içir, təmiz və səliqəlidir, həmişə özündən böyüklərin hörmət və ehtiramında dayanır. Müəllif Azərbaycan məktəbli qızlarına xas olan müsbət mənəvi-əxlaqi keyfiyyətləri Rübabənin üzərində cəmləşdirir. Hekayədə təsvir olunan Rübabə böyük şair-dramaturq Hüseyn Cavidin “Qız məktəbində” adlı şerində təsvir olunan balaca məktəbli qız Gülbaharın surətini yada salır. Gülbahar da Sidqinin balaca qəhrəmanı Rübabə kimi məktəbli qıza xas olan müsbət əxlaqi keyfiyyətləri özündə birləşdirir. Çox güman ki, Sidqinin “Tərbiyə” məktəbində təhsil alan Hüseyn Cavid öz müəllimindən bu hekayəni eşitmiş və özünün ilk şeir yaradıcılığında həmin mövzudan istifadə etmişdir.

“Analar bəzəyi” hekayəsində Sidqi bütün həyatını doğma balalarının tərbiyəsinə sərf etmiş mənəviyyatca zəngin bir ananın xarakteri ilə bərbəzək düşkünü olan meşşan təbiətli bir qadının xarakterini qarşı-qarşıya qoyur. Müəllif ananın övladlarına olan qayğıkeşliyini, onun övlad tərbiyəsində oynadığı həlledici rolunu və ailədəki valideynlik borcunu səciyyələndirərək yazırdı: “Övlada əvvəlinci təlim və tərbiyə verən anadır. Anaların rəftarı və girdarı, hal və hərəkəti balaların qəlbinin aynasına əks salır. Elmli və mərifətli analar süd verən vaxtdan başlayıb övladlarının təlim və tərbiyəsinə məşğul olurlar. Onlar balasının təlim və tərbiyəsini özünün bəzənib-düzənməyindən vacib bilirlər”.

Bu mülahizələrdən sonra müəllif hekayənin əsas məzmununa keçir.

Hekayədə təsvir olunur ki, bir gün bərbəzək sevən bir qadın onları nümayiş etdirmək məqsədilə təzə libaslarını geyinir və qiymətli cavahiratlarını taxıb bir evə qonaq gedir. O, ev sahibəsini sadə geyimdə görüb ona – “Sənin də zərzivərini görmək istəyirəm”, – deyir. Bu zaman ev sahibəsinin uşaqları məktəbdən qayıdırlar. Sadə qadın məktəbli balalarını ona göstərib deyir: “Mənim də zərzivərim, mülk və malım, cah və cəlalım bu iki gözlərimin nuru və ciyərparələrimdir. Mənim üçün əziz balalarıma təlim və tərbiyə vermək cavahiratdan qiymətlidir”.

Ananın bir qadın kimi ailədəki qayğıkeşliyi və valideynlik borcu hekayənin əsas qayəsini təşkil edir.

M.T.Sidqinin maarifçi-publisist fəaliyyəti daha çox Şərq mətbuatı ilə bağlı olmuşdur. O, bədii, ədəbi-tənqidi və publisist fəaliyyəti ilə Azərbaycan maarifçi-realist ədəbiyyatının, bədii publisistikasının formalaşması və inkişafında əvəzsiz rol oynamışdır. Böyük maarifçinin Tiflis, Baxçasaray, İstanbul, Təbriz, Tehran və Qahirədə nəşr olunan “Şərqi-Rus”, “Tərcüman”, “Ədəb”, “Əxtər”, “Nasiri”, “Süreyya”, “Pərvəriş”, “Həblülmətin”, “Hikmət” və sair mətbu orqanlarında nəşr olunmuş bədii, ədəbi-tənqidi və publisistik məqalələri XIX əsr Azərbaycan ədəbiyyatının zəruri və aktual problemlərinə həsr olunmuş, maarifçi-realist ədəbiyyatın formalaşmasında xüsusi rol oynamışdır. Sidqi öz maarifçi-publisist məqalələri ilə Şərqdə Azərbaycan maarifçiliyini təmsil etmişdir.

M.T.Sidqi də Azərbaycanın milli demokrat maarifçiləri kimi “üsuli-cədid” hərəkatının alovlu təbliğatçısı idi. O, bu hərəkatı İsmayıl bəy Qaspıralının “Tərcüman” qəzetinin səhifələrində də təbliğ edir və Naxçıvanda öz əməli fəaliyyətində həyata keçirirdi.

Milli türkçülük ideyalarına ürəkdən bağlı olan Sidqi “Tərcüman” qəzetinin səhifələrində dərc etdirdiyi məqalələrində də İ.Qaspıralının qaldırdığı türkçülük ideyalarına və “üsuli-sövtiyyə” maarif probleminə tərəfdar çıxır, bu ideyaları cəsarətlə müdafiə və təbliğ edirdi. O, 1891-ci ildə “Tərcüman”da dərc etdirdiyi “Ordubaddan məktub” adlı məqaləsində yazırdı: “Bir millət nə qədər alim, məlumatlı və sənaətli isə şu nisbətdə qut və məsudiyyət kəsb edib tərəqqi edər; həm bir millətin məktəbləri, kütubxanələri, nəşriyyat və cəridələri nə qədər ziyadə isə, millətin maarif və kəmalatı şu nisbətdə irəlidədir”.

M.T.Sidqinin çıxış etdiyi xarici mətbu orqanlardan biri də “Nasiri” qəzeti idi. Bu adda qəzet eyni dövrdə həm Təbrizdə, həm də İranın Buşəhr şəhərində çıxırdı. Sidqi bu qəzetlərin hər ikisində çıxış etmiş və onların Naxçıvanda vəkili olmuşdur.

“Nasiri” qəzeti öz səhifələrində Sidqinin bədii mənzum əsərlərinə də yer verirdi. Qəzet Sidqinin çap olunmaq üçün redaksiyaya göndərdiyi “Hekayəti-mənzum” əsəri haqqında yazırdı: “Ədəb sahibi olan cənab ağa Məşədi Tağı Sidqi ki bu zəmanənin bilicilərindən və maarifpərvərlərin şöhrətlilərindən birisidir, aşağıdakı “Hekayət”i ki hübbül-vətən barəsindədir,

Ardı 4-cü səhifədə

nəzmə çəkib və idarəyə göndərmişdir. Çün məzmunu yaxşı və faydadan xali deyildir, ona görə çapına iqdam edirik”.

“Nasiri” qəzetinin yüksək qiymət verib çap etdiyi bu mənzum hekayət 21 beytdən ibarətdir. Əsər milli birliyi və vətənpərvərliyi təbliğ ruhunda yazılmışdır. Təmsilvari, alleqorik üslubda qələmə alınan bu əsərdə Sidqi özü ədəbi personaj kimi iştirak edir. Şair qarışqa yuvasının yanında durub qarışqalara tamaşa edir. Qarışqalar bahar vaxtı yuvalarına dən daşıyırlar. Bu zaman zəhərli bir əqrəb qarışqaların yuvasına girmək istəyir. Bunu görən qarışqalar əqrəbin üstünə hücum çəkir və onu əsir edirlər.

Şair kənardan qarışqaların əqrəblə döyüşünə baxıb heyrətə düşür ki, zəhərli əqrəb kiçik qarışqaların əlində əsir olub ölür. Bu zaman bir qarışqa onlara heyrətlə baxan şairə qışqırır ki, təəccüb yeri yoxdur. Şairi heyrətdə görən qarışqa ona bu işdən ibrət götürməyi tövsiyə edərək deyir:

*Ki ey fikir əhli, təəcüb eyləmə,*
*Bir anlığa qəflət pərdəsini gözündən çək*
*Ki, vətənsevərlik bizim dinimiz və*
*ayinimizdir.*
*Bu vaqiədə Allah bizə yardır.*
*Çünki biz canını fəda edənlər bir millətik*
*Hamımız qeyrət və himmət sahibiyik.*
*Çün cəmiyyətimiz və birliyimiz vardır,*
*Qarşımızda heç bir müşkülümüz yoxdur.*
*Sən də kiçik bir qarışqadan kəm deyilsən,*
*Əgər bir qarışqadan da kəmsən,*
*bəs nəsən?*
*Düşmənlərdən evini qoru,*
*Yuvanı və dənini qoyma qarət olunsun.*
*İndi qarışqanın hekayətini yad elə,*
*Get öz evini abad elə.*

Orijinal və ibrətamiz məzmunda qələmə aldığı bu mənzum hekayəsində Sidqi oxuculara özünün Vətən sevgisi və milli birlik ideyasını aşılamış, xalqı Vətənin və millətin azadlığı uğrunda mübarizəyə səsləmişdir.

M.T.Sidqi rus klassik ədəbiyyatına da yaxından bələd idi. O, “Puşkin” adlı məruzəsində Rusiyanın Karamzin, Puşkin, Lermontov, Qriboyedov kimi klassik ədiblərinə qiymət verir, onların rus ədəbiyyatı sahəsindəki xidmətlərini qiymətləndirir.

1894-cü ildə M.T.Sidqi özünün yaratdığı yeni üsullu “Tərbiyə” məktəbi ilə əlaqədar Naxçıvan şəhərinə köçür. Naxçıvanın ədəbi-ictimai və mədəni mühiti Sidqinin elmi və maarifçilik fəaliyyətinin inkişafına daha böyük təkan verir. M.T.Sidqinin əhatə olunduğu Naxçıvan ədəbi mühitinin nümayəndələri Naxçıvanın ədəbi-mədəni həyatında fəal iştirak edir, xarici dövri mətbuatın səhifələrində ədəbi-publisist və müxbir məktubları ilə çıxış edirdilər. Bu sahədə M.T.Sidqi, Cümşüd bəy (Paşa ağa) Sultanov, Nəsrullah Əmirov, Qurbanəli Şərifzadə kimi ziyalılar xüsusilə fərqlənirdilər. Həmin dövrdə Sidqi Naxçıvanın maarif və mədəni həyatını dirçəltmək üçün şəhər bələdiyyə idarəsinin nəzdində ziyalılar üçün bir qiraətxana təşkil edir və əcnəbi ölkələrdə nəşr olunan mətbuat orqanlarının redaksiyaları ilə məktublaşıb xarici qəzetlərin Naxçıvanın bələdiyyə qiraətxanasına göndərilməsinə nail olur.

*Naxçıvan ədəbi mühiti Sidqinin bir maarifçi, şair və publisist kimi yetişməsində xüsusi rol oynamışdır.*

**Əsgər QƏDİMOV**
***Naxçıvan Dövlət Universitetinin professoru***

# Arxiv sənədlərinin dili ilə...

***XIX əsrin sonu, XX əsrin əvvəllərində Azərbaycanda, eləcə də Naxçıvanda xalq maarifi və pedaqoji fikrin inkişafında yazıçı, şair və maarifpərvər ziyalı Məhəmməd Tağı Sidqi Səfərovun mühüm rolu olmuşdur.***

İndiyədək Sidqinin bədii yaradıcılığından, ədəbi-ictimai və pedaqoji fəaliyyətindən bəhs edən xeyli tədqiqatlar aparılmış və bu araşdırmalar müxtəlif məqalə, oçerk, dissertasiya və monoqrafiyalarda öz əksini tapmışdır. Lakin bu, o demək deyil ki, Sidqinin çoxşaxəli fəaliyyəti, elmi-ədəbi, bədii və publisistik yaradıcılığı tam şəkildə tədqiq olunmuşdur. Araşdırmalar davam etdikcə bu böyük şəxsiyyət haqqında yeni-yeni faktlar və məlumatlar aşkara çıxmaqdadır. Biz bu məqalədə M.T.Sidqiyə, həmçinin onun Ordubadda açdığı “Əxtər” (1892), Naxçıvanda təsis etdiyi “Məktəbi-Tərbiyə”yə aid bir neçə yeni arxiv sənədləri haqqında bəhs edəcəyik.

Sidqinin ilk pedaqoji fəaliyyəti “Əxtər” məktəbindən başlamışdır. O, burada var qüvvəsini həmvətənlərinin maarif və mədəniyyətə yiyələnməsinə sərf etmişdir.

1892-1893-cü illərdə nəşr edilmiş quberniya mətbuat orqanlarının bir çoxunda “Əxtər” haqqında bir sıra yazılar dərc edilmişdir. Lakin təzadlar dolu həmin dövrdə həmməsləkləri və tərəfdarları vəfat etdikdən sonra Sidqinin həyat şəraiti pisləşməyə başlamışdır. Bir tərəfdən fanatik ruhani və cəhalətpərəstlərin təqibi, digər tərəfdən ailə vəziyyətinin ağırlaşması Sidqinin Ordubaddan köçməsinə səbəb olmuşdur.

Bu barədə M.S.Ordubadi belə yazır: *“Məktəb müəssisələrindən Hüseyn Sultan Kəngərli və Hüseyn İsmayılov ikisi də bir gündə öldülər. Bundan sonra Salman Əsgərov məktəbi yalnız bir il saxlaya bildi. Sidqi maaşsız qaldı. Bu müddətdə naxçıvanlılar Sidqiyə teleqram və məktub göndərib onu Naxçıvana apardılar”.*

Ordubadlı Məşədi Əliqulu Səfərov M.T.Sidqinin Ordubadda açdığı “Əxtər” məktəbi haqqında 1964-cü ildə qələmə aldığı xatirələrində yazır: *“Mən Mirzə Tağı Sidqinin yanında 5 il oxumuşam. Biz 10 nəfər uşaq əvvəllər Sidqinin evində oxuyardıq. İki il evində oxuduqdan sonra indiki ipək fabrikasının klubu olan yerdə “Məktəbi-Əxtər” təsis olundu. Bu məktəbi Sidqi açdığından ona “Məktəbi-Sidqi” deyirdilər. 3 il də orda oxudum. İki il M.T.Sidqi dərs deyəndən sonra onu Naxçıvana apardılar. İkinci il məktəbdə oxuduğumuz vaxt 100 nəfər uşaq vardı. Bunlardan 30-u İrandan gəlib oxuyurdu. Qalanı Əndəmiçdən, Əylisdən, Vənənddən və Ordubadın özündən idi. Sidqinin atası Məşədi Səfər pinəçi idi. Adına Səfər bəy deyirdilər, özü də qəcələ quyruq papaq qoyurdu.*

*Məşədi Həmzə, mən, İbrahim Əbilov bir sinifdə oxuyardıq. Məktəbdə oxuyan varlı balalar ayda 3 manat, bizim kimi kasıblar isə pul verməzdik. Bəziləri isə həftədə 2 qəpik verirdi. Məktəb əhalinin hesabına dolanırdı. Biz “hesab”, “Ana dili”, “rus dili”, “fars dili”, “ərəb dili”, “coğrafiya” dərslərini keçərdik.*

*Məktəbə yaxşı kömək edirdi Mənsur ağa, bir də Məşədi Əsgər.*


**“Əxtər” məktəbi**

*Onlar məktəbə pul verib məktəbi saxlayırdılar. Biz dərslərimizi cildli kitablardan keçməzdik. Ancaq Sidqi müəllimin əlində olan yazılı vərəqlərdən keçirdik. Sidqi Naxçıvana getdikdən sonra “Məktəbi-Əxtər” 3 il davam edib sonra bağlandı.*

*Ondan 10 il sonra eşitdik ki, Sidqi müəllim Qarabağlarda ölüb. Onun yoldaşları Nəqqaş, Dəbbak Sidqinin vəfatı ilə Sidqiyə bir qəzəl yazmışlar ki, oxuyanda adam ağlayırdı”.*

M.T.Sidqi 1894-cü ildə Naxçıvana gəlib yerli ziyalılara arxalanaraq burada yenitipli təhsil ocağı olan “Məktəbi-Tərbiyə”ni təsis etdi.

O, bu məktəb üçün ayrıca tədris planı, dərs cədvəli, təqvim – iş planı, maliyyə-təsərrüfat planı, şagirdlər üçün ədəb qaydaları, valideynlər üçün nizamnamə, əlyazma şəklində dərsliklər tərtib edərək məktəb şagirdlərinin hərtərəfli dünyəvi təhsilə yiyələnmələrini təmin edirdi.

“Şərqi-Rus” qəzetində dərc olunmuş məqalələrdən birində “Məktəbi-Tərbiyə”nin açılması haqqında yazılmışdır: *“1894-cü ilin sentyabr ayında Naxçıvanda “Məktəbi-Tərbiyə” adlı bir məktəb ehdas etdilər. Bu aliqədr müəllimin (Sidqiyə işarədir – F.C.) öz işinə isti qanı ilə yanaşmağı və tərbiyəti-ətraflı şagirdlərin şövqilə məktəbə gedən elm və ədəb təhsil etməkləri xalqın məhəbbətini cəlb etdi və pul cəm edib “Məscidi-Came”nin həyətində bir təzə məktəb bina etdilər”.*

Araşdırılan arxiv sənədlərində “Tərbiyə” məktəbinin yeni binasının tikilməsinə maddi köməklik etmiş xeyriyyəçi, Bakı milyonçusu Hacı Zeynalabdın Tağıyev haqda iki sənədə rast gəldik ki, bu sənədlərdən biri məktəbin müdiri M.Tağı Səfərovun İrəvan quberniyası və Qars vilayəti xalq məktəbinin müdirinə göndərdiyi raportdur. Həmin raportda M.T.Sidqi yazır: *“Məşhur xeyriyyəçi və hər cür xeyirli işə, xüsusən də xalqın təhsili işinə köməklik edən Bakı şəhər sakini Hacı Zeynalabdın Tağıyev Naxçıvandakı rus-tatar məktəbinə 1000 manat köməklik edib, həmin pullar eyvanın düzəldilməsinə və başqa xərclərə yönəldilib.*

*Bu haqda mən siz həzrətlərinə bildirirəm.*

***Məktəbin müdiri (imza) M.T.Səfərov”***

Naxçıvan qəzasının ictimai həyatında fəal iştirak edən, əhalini elmə, ədəbə, təhsilə və tərəqqiyə səsləyən bu qabaqcıl pedaqoqun fəaliyyəti o zamankı təhsil işlərinə baxan bir sıra cəhalətpərəst rəislərin xoşuna gəlmirdi. Ona görə də çar üsul idarələri və cəhalətpərəst fanatiklər nəyin bahasına olursa-olsun, Sidqini yox etməyə çalışır və heç olmazsa onu məktəbin müdirliyindən uzaqlaşdırmaq istəyirdilər. Sidqini məktəbdən uzaqlaşdırmaq üçün həmin rəislərin əlində formal və lüzumsuz bəhanələr də var idi. Bu isə Sidqinin müəllimlik sənədinin olmaması idi. Nəhayət, Sidqinin sənədinin olmadığını bəhanə edib onu müdirlikdən (1897-ci ilin iyul ayında) azad edirlər. Əgər qısa bir müddət içərisində imtahan verib attestat almasa, Sidqini müəllimlikdən də çıxaracaqlarını bildirmişdilər.

“Ana dili” dərslərini tədris edən M.T.Sidqi 1902-ci ildə müvəffəqiyyətlə imtahan verərək müəllimlik attestatı alır. Belə bir çətin şəraitdə Sidqi təsis etdiyi “Tərbiyə” (1897-ci ildə rus-tatar) məktəbində ana dili müəllimi saxlanılır. Onu da qeyd edək ki, Sidqiyə göstərilən təzyiqlər və Ordubada dəvət olunması ilə əlaqədar o, 1900-cü ilin iyul ayında Ordubad şəhərində açılması nəzərdə tutulmuş rus-tatar (Azərbaycan) məktəbinə dəyişilməsi haqda İrəvan Quberniyası Xalq Məktəblərinin Müdiriyyətinə xahişnamə göndərmişdir.

Bunu bilən II Kalbalı xanın oğlu, Naxçıvan şəhərinin başçısı (starostu) və “Məktəbi-Tərbiyə”nin fəxri nəzarətçisi Cəfərqulu xan Naxçıvanski 19 avqust 1900-cü il tarixdə İrəvan Quberniyası Xalq Məktəbləri Müdiriyyətinin inspektoruna (sənəddə adı, soyadı göstərilməyib) göndərdiyi məktubunda yazır: *“Aldığım məlumatlara görə, Naxçıvan rus-tatar məktəbinin müəllimi Məşədi Tağı Ordubadda açılacaq rus-tatar məktəbinə keçirilir.*

*Siz həzrətlərinin nəzərinə çatdırmağı özümə borc hesab edirəm ki, Naxçıvanda yeni açılmış rus-tatar (Tərbiyə – F.C.) məktəbi yalnız adıçəkilən müəllimin səyləri hesabına mövcuddur, hansı ki şagirdlərə dərs deməyə və onları rus məktəblərinə hazırlamağa böyük bacarığı vardır. Müəllim Səfərova Naxçıvan şəhəri tərəfindən ildə 500 manat məvacib ödənilir. Adıçəkilən məktəb hələ tam formalaşmayıb. Əgər Səfərov Ordubad şəhərinə keçirilərsə, onda bu məktəbi bağlanmaq təhlükəsi gözləyir. Naxçıvandakı rus-tatar məktəbi tam möhkəmləndikdən*


**“Tərbiyə” məktəbi**

*sonra Səfərov başqa yerə keçirilə bilər.*

*Yuxarıdakıları nəzərinizə çatdıraraq xahiş edirəm, Məşədi Tağı Səfərovun Naxçıvan rus-tatar məktəbində saxlanması xahişini rədd etməyəsiniz.*

***Naxçıvan şəhər başçısı (starost) (imza) Cəfərqulu xan Naxçıvanski”.***

Bu dövrdə Sidqinin böyük nüfuz sahibi olduğunu görən ordubadlılar Ordubad şəhər starostu (başçısı) Abutalıbovdan xahiş edirlər ki, Sidqini Ordubada qaytarsınlar.

Ordubaddan alınan rəsmi təliqələrdən birində yazılmışdır: *“Ordubad şəhər müsəlman cəmiyyətinin 5 fevral 1900-cü il qərarına əsasən, 1 sentyabr 1900-cü il tarixdən Ordubadda başqa bir rus-tatar məktəbi təsis olunmuşdur. Cəmiyyətin üzvlərindən Hacı Məhəmməd Hacı Abdulla oğlu Quliyev, Məşədi Sadıq Cabbar oğlu ilbəil məktəbin saxlanması üçün lazımi gəlir verəcəklərini öhdələrinə götürmüşlər.*

*Müəllimlərin seçilməsi işi cəmiyyətin xüsusi iclasında həll olunmuş, müsəlman dilinin tədrisi isə sizə tapşırılmışdır.*

*Əlahəzrət. Ordubad şəhər müsəlman cəmiyyətinin bu xoş arzusunu sizə çatdırmaqla öz tərəfimdən əminəm ki, doğma şəhərimizin gənc nəslinin maariflənməsinə siz tərəfdən xidmət göstərilməsinə etiraz etməyəcəksiniz. Cəmiyyətə müsbət xəbər çatdırmaq üçün səbirsizliklə cavabınızı gözləyirəm.*

***Ordubad şəhər starostu (başçısı) (imza) Abutalıbov”.***

Lakin Sidqi Naxçıvandan getmək istəmir. Buna görə də M.T.Sidqi 1900-cü ilin iyulunda Ordubadda yeni açılacaq rus-tatar (Azərbaycan) məktəbinə keçirilməsi haqda İrəvan Quberniyası Xalq Məktəbləri Müdiriyyətinin inspektoruna yazdığı xahişnaməsinin icra edilməməsi haqda 2 sentyabr 1900-cü il tarixdə bir xahişnamə göndərib: *“Ordubadda açılmış yeni rus-tatar məktəbinə keçirilmək istədiyimi sizə bildirmişdim. Siz həzrətlərindən xahiş edirəm ki, 27 iyul 1900-cü il tarixli çevrilmək haqqında xahişimi həyata keçirməyəsiniz.*

***Məşədi Tağı Sidqi Səfərov (imza)”.***

Bir sıra elmi-pedaqoji, ədəbi-publisist, ictimai-siyasi və fəlsəfi əsərlərin müəllifi olan Sidqinin yaşadığı mühiti, xalqının acınacaqlı və ətalətli həyatı onun qəlbində fəsadlar törətməyə bilməzdi. İlk günlərdən öz xalqının həyatında gördükləri acınacaqlı vəziyyət onun həssas qəlbinə güclü təsir göstərirdi. Buna görə də Sidqi ürək xəstəliyinə tutulur. Tez-tez tutan ürək sancıları kəskinləşib 1903-cü il dekabrın 8-də qonaq dəvət olunduğu Qarabağlar kəndində vəfat etməsinə səbəb olur. M.T.Sidqinin ölümü ilə bağlı Naxçıvan rus-tatar (Azərbaycan) məktəbinin nəzarətçisi (müdiri) Ələkbər Süleymanov 12 dekabr 1903-cü ildə İrəvan Quberniyası Xalq Məktəbləri müdirinə göndərdiyi raportunda yazır: *“Siz həzrətlərinə çatdırmaq istəyirəm ki, mənim nəzarətimdə olan məktəbin müəllimi Məşədi Tağı Səfərov bu il dekabr ayının 8-də müsəlmanların Oruc bayramı günü Qarabağlar kəndində tanışının evində vaxtsız vəfat edib. Bunları siz həzrətlərinə çatdıraraq sizin tatar dilinin (Azərbaycan dilinin – F.C.) tədrisi işinə dair sərəncamınızı gözləyirəm.*

***Məktəbin nəzarətçisi (imza) Ə.Süleymanov”***

*M.T.Sidqinin vəfat tarixinin bir çox məqalə, kitab, ensiklopediya və monoqrafiyalarda dekabrın 9-u göstərilməsinə baxmayaraq, məktəbin nəzarətçisi (müdiri) Ə.Süleymanovun İrəvan xalq məktəbləri inspektoruna göndərdiyi məktubunda və Sidqinin həyat yoldaşı İsmət xanımın Sidqinin ölümü ilə əlaqədar uşaqlarına dövlət tərəfindən təqaüd kəsilməsi haqqında məktəbin müdirinə yazdığı ərizəsində Sidqinin dekabrın 8-də vəfat etdiyi göstərilir.*

*M.T.Sidqinin Naxçıvan maarifinin inkişafında nail olduğu bu tərəqqi böyük maarif ordusunun qəlbindən silinməmişdir. Sidqi kimi fəaliyyət göstərmək, camaat arasında onun kimi böyük nüfuz qazanmaq, var qüvvəni maarif və mədəniyyətin durmadan inkişafına sərf etmək hər bir müəllim və maarifçinin məqsədi və işinin əsas meyarı olmalıdır.*

**Fəxrəddin CƏFƏROV**
***Naxçıvan Muxtar Respublikası Arxiv İdarəsinin rəisi, tarix üzrə elmlər doktoru***

*Məhəmməd Tağı Sidqi Səfərov ömrünü Azərbaycan maarifinə həsr edən dahi bir şəxsiyyət, görkəmli maarifçi, nəhəng pedaqoq, dövrünün aparıcı simalarından biri idi. Bu fədakar, yorulmaz, millətcanlı şəxsiyyət hələ Ordubadda kasıblığın daşını atmaq üçün işlətdiyi çayxanada da maarifçilik amalına sədaqət göstərmiş, burada toplaşan insanların dünya hadisələri və digər məsələlərdən xəbərdar olması üçün mümkün vasitələrdən istifadə etmişdir.*

# O, hər zaman maarifçilik amalına sədaqət göstərmişdir

Təsadüfi deyil ki, onun bu çayxanası görkəmli şəxsiyyətlər tərəfindən "maarif ocağı" kimi də qiymətləndirilirdi. Oğlu Məmmədəli Sidqi də nəhəng pedaqoqun çayxanası haqqında bunları yazmışdır: "O zaman atamın çayçı dükanı Ordubad ziyalılarının yığıncaq yeri olur. Atamın təbi olduğuna görə, xüsusən Şərq ədəbiyyatına yaxşı bələd olduğuna görə haman çayçı dükanında Sədi, Hafiz, Firdovsi, Nizami kimi şairlərin şeirləri oxunur və təhlil olunurdu. Eyni zamanda atam o zaman İrandan, Rusiyadan və Türkiyədən qəzetələr də alıb oxuyarmış. Məsələn, İrandan "Nasiri", Baxçasaraydan İsmayıl bəy Qaspirinskinin nəşr etdiyi "Tərcüman", İstanbulda çıxan "Əxtər" qəzetələrini alırmış. Bu qəzetələr çox vaxt atamın həmməsləkləri arasında gizlincə oxunarmış. "Tərcüman" qəzetəsinin atama böyük təsiri olmuşdur. Çünki o zaman "Tərcüman" qəzetəsinin müdiri Qaspirinski Rusiyada yaşayan müsəlmanlar üçün yeni üsulla məktəblər açılması yolunda uzun müddət mübarizə aparırmış... "Tərcüman" qəzetəsinin təsiri altında atam və ona bu yolda ən birinci və yaxından kömək edən Hüseyn Sultan Kəngərlinski, nəhayət, Ordubadda yeni üsulla bir məktəb təşkil etmək fikrinə düşürlər".

Məhəmməd Tağı Sidqinin həyatı və fəaliyyəti maarifçilik idealları ilə zəngindir. Mirzə Cəlil Şürbi bu nəhəng simanı yaxından tanıyan bir müasiri kimi onun haqqında haqlı olaraq yazırdı: "O, elə bir mühərrir və müdərris idi ki, səsi bütün Yaxın və Orta Şərqi maarif nuruna qərq etmişdi".

M.T.Sidqi başdan-ayağa maarifçi idi. Onun maarifpərvər insan Hüseyn Sultan Kəngərli ilə birlikdə 1892-ci ildə Ordubadda yaratdığı "Əxtər", Naxçıvanda yaradılan "Tərbiyə" (1894) məktəblərindəki pedaqoji fəaliyyəti, "Əxlaq nümunələri", "Qızlara hədiyyə", "Coğrafiya" və sair əsərləri Sidqinin maarifçi-pedaqoji fəaliyyətinin əsasını təşkil edir.

Ordubadda açılan yeni üsullu "Əxtər" məktəbi Məhəmməd Tağı Sidqinin pedaqoji ustalığının yayılmasına imkanlar açmış və camaat bu görkəmli ziyalının işindən hədsiz dərəcədə razı qalaraq övladlarının yeni məktəblərdə təhsil almalarına kütləviliklə razılıq verməyə başlamışdır. Buna görə də böyük pedaqoqun müasiri və yaxın dostu olmuş Cəlil Məmmədquluzadə ustad müəllimin vəfatı münasibətilə yazdığı "Getdi cahandan həzrəti Sidqi..." başlıqlı məqaləsində onun kütlə içərisində qazandığı hörmət və etibar barədə belə yazırdı: "...Çox zamanlar çəkər ki, mərhumun adı vətəndaşlarımızın yadından fəramuş ola. ...Nədir buna bais? Nə eləyibdi bizə Sidqi ki, onun dünyadan getməyinə bu qədər ah-nalə çəkib ağlayırıq? Cavabım budur: ah-naləmiz məhz bir ondan ötrü deyil ki, Sidqi şəhərimizdə bir nizamlı məktəb açmış. Ahnaləmiz ondan ötrü deyil ki, əgər Sidqi olmasaydı, bəlkə, hələ indiyədək yazıq vətənimizin fəqir balaları məcbur idilər, dükanların qaranlıq bucaqlarında və samanlıqların soyuq küncələrində, nəm torpaqlar üstə çöküb cırıq çərəkələrin üstə səriştəsiz müdərrislərin çubuqlarının xofundan göz yaşı töksünlər..." Böyük ədibin "o hörmət və məhəbbət ki, camaatımız mərhuma göstərirdi, indiyə kimi heç bir şəxsə göstərməyib. Mərhumu canü-dildən dost tuturdular mollalar, seyidlər, xanlar, əsnaf və hammal. Küçə və bazarda Sidqini barmaq ilə göstərirdilər" kimi sözləri də Məhəmməd Tağı Sidqinin cəmiyyət və onun hər bir üzvü arasında qazandığı sonsuz ehtiram və etibarı aydın nümayiş etdirə bilir. Mirzə Cəlil Şürbinin: "Şəhri-Naxçıvanda elə bir hacı, elə bir ustad, elə bir uşaq və elə bir müəllim tapılmazdı ki, Sidqinin dəryayi-hikməti qarşısında diz çökməsin və ona səcdə etməsin" sözləri də bu görkəmli pedaqoqa əhalinin müxtəlif təbəqələrinin hörmətini göstərən sanballı dəlillərdəndir.

Görkəmli pedaqoq-maarifçinin məktəbindən məzun olan şəxsiyyətlər sırasında Azərbaycan xalqının qabaqcıl simaları olan Hüseyn Cavid, Məmməd Səid Ordubadi, Əli Səbri Qasımov, İbrahim Əbilov, Əziz Şərif və çoxsaylı digər görkəmli adamlar var idi. Bu ehtirama və hörmətə isə Sidqi öz əməlləri – maarifpərvərliyi, insanpərvərliyi, möminliyi və dindarlığı, böyüklərə sayğısı və uşaqlara qayğısı sayəsində nail olmuşdu. Məhəmməd Tağı Sidqi, bəlkə də, yeganə şəxsiyyət idi ki, təzadlı dövr olan XIX əsrin sonları, XX əsrin əvvəllərində həm kütlə tərəfindən, həm də ziyalı, ədib və hörmətli şəxslər tərəfindən eyni dərəcədə hörmətlə qarşılanır və yad olunurdu. Təkcə bu fakt Məhəmməd Tağı Sidqinin avam camaat arasında hörmət və nüfuzunu göstərməyə kifayətdir ki, atası Molla Abdulla tərəfindən din xadimi olmaq üçün ağaca dırmaşdırılan Hüseyn Cavidi yeni üsullu məktəbə getməyə razı saldıran məhz bu şəxsiyyətin hörmətəlayiq sözü və məsləhəti idi. Hüseyn Cavidin dindar valideynlərini razı salmağa yalnız Məhəmməd Tağı Sidqinin sözü kar eləmişdi. Hüseyn Cavidin istedadının vaxtında aşkarlanması, düzgün istiqamətlənməsi və inkişafına yol açan da, onu Azərbaycan ədəbiyyatı və mədəniyyəti tarixində Cavid zirvəsinə qaldıran yola çıxaran da məhz müəllimlər müəllimi ustad Məhəmməd Tağı Sidqi olmuşdur. Buna görə həmişə əziz müəllimini hörmətlə yad edən Hüseyn Cavid bu görkəmli şəxsiyyətə "böyük ustad və cəlalli atamız" deyə müraciət edirdi. Böyük demokrat ədib Cəlil Məmmədquluzadənin Məhəmməd Tağı Sidqinin maarifçilik sahəsindəki fəaliyyətinə verdiyi yüksək qiymət Azərbaycan ziyalılığının onun haqqındakı qənaətlərini özündə ümumiləşdirən bir fikir kimi oluqca diqqətəlayiqdir: "Naxçıvan şəhərində haman məktəbi ("Tərbiyə" məktəbinə işarə edilir – müəllif) həzrəti-Sidqi təsis edən zaman belə qaydalı müsəlman mədrəsəsi nəinki İrəvanda, bəlkə, Qafqazın müsəlman şəhərlərinin çoxunda yox idi. Sidqi Naxçıvana gəlməmiş şəhərimizin camaatı təzə qayda üzrə elm təhsil etməyi xoşlamayıb, təzə üsul məktəbxana açılmasına bilmərrə rağib deyildi… Sidqi Naxçıvana gələn kimi burada, guya ki, zəmanə birdən tağyir tapdı. Mərhumun vəz və nəsihətinin səmərəsi bir az vaxtda görsəndi. Hər bir kəs dünən deyirdi: "Mən sizin təzə məktəbinizi istəmirəm", bu gün Sidqi ilə söhbət edəndən sonra söyləyirdi: "Razıyam!" ...Sidqinin vətənimizə etdiyi qulluğun qədrini bilməkdən ötrü lazımdır, müqabilə etmək camaatımızın savad və arif aləmində olan indiki əhvalı ilə 10 il bundan əvvəl olan halətini. Tərəqqi çox artıq görünür və əgər söyləsək ki, bu tərəqqinin onda doqquzuna bais məhz Sidqidir, insafdan və həqiqətdən bilmərrə uzaq olmaz".

Məhəmməd Tağı Sidqi şəxsiyyət etibarilə imanlı dindar və mömin olduğu kimi, xalqına bağlı, insanpərvər, vətənin nicatı üçün çalışan, İslamın buyurduğu kimi insanlara elm, bilik və savad öyrədən işıqlı bir şəxsiyyət idi. Bu səbəbdən də onu cəmiyyətin hər bir təbəqəsi sevir, hörmətini saxlayırdı. Bu səbəbdən də onun dediyi sözlər Mirzə Cəlilin dediyi kimi, "özgə şəklə düşüb, əlahiddə məna" qazanırdı, həmsöhbətini bütün fikrindən daşınmağa, onunla razılaşmağa, balasını yeni üsullu məktəbdə oxutmağa razı saldırırdı.

Bir çox ictimai mübahisələrin də həllində Məhəmməd Tağı Sidqinin nüfuzu əhəmiyyətli rol oynamışdı. İsmayıl bəy Qaspıralı və Məhəmməd ağa Şahtaxtlının, Əlimərdan bəy Topçubaşovla Əhməd bəy Ağayev arasındakı münaqişə və mübahisənin xalq, ictimaiyyət arasında düzgün anlaşılması, tərəflər arasında barışığın əldə olunması sahəsində də onun sözü mühüm rol oynamışdı. Bütün bunlar isə bu görkəmli şəxsiyyətin nüfuzundan qaynaqlanırdı.

Bəli, bu gün anadan olduğu vaxtdan düz 160 il sonra yubileyi hörmət və ehtiramla qeyd edilən Məhəmməd Tağı Sidqi belə nümunəvi ustad və peşəkar bir ziyalı, müəllim idi. Görkəmli pedaqoq-ədibin 160 illik yubileyinin keçirilməsi haqqında Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin sərəncamı həm bu görkəmli şəxsiyyətə, onun bir zamanlar Naxçıvanda təhsilin və milli inkişafın güclənməsinə göstərdiyi əvəzsiz xidmətlərə verilən ən layiqli qiymət, həm də onun fədakar müəllimlik əməyi və fəaliyyətini bu günün və gələcəyin müəllimlərinə təbliğ etmək kimi mühüm əhəmiyyət daşıyır.

"Şərqi-Rus" qəzetinin də vaxtilə bu unudulmaz pedaqoq haqqında yazdığı kimi: *"Əgər ki özü bu aləmdən getdi, lakin mərifət və qeyrət toxumunu insaniyyət bağında əkib səmərəsi ələd-dəvam yetişməkdədir. Və asari-ədəbiyyəsi ilə cəridəyi-aləm səhifəsinə adını səbt edib özünə bir mənəvi heykəl ucaltdı".*

**Ramiz QASIMOV**
*filologiya üzrə fəlsəfə doktoru*

# Məhəmməd Tağı Sidqinin maarifçilik fəaliyyətində tərbiyə məsələləri

***Məhəmməd Tağı Sidqinin yaradıcılığı öz aktuallığı ilə bu gün də gənclərin təhsillənməsi, tərbiyələnməsi və psixoloji inkişafında böyük önəm kəsb edir. Onun "Nümuneyi-əxlaq" dərsliyindəki imla mətni kimi düşünülmüş bədii nümunələrdən pedaqoji mülahizə qatını ayırıb hekayə hissəsini ayrıca oxuduqda bunların bitkin və mənalı uşaq hekayələri olduğu nəzəri cəlb edir.***

Dərsliyin müqəddiməsində Sidqi yazır: "Üsuli-cədid üzrə açılan məktəblərimizdə kütübi-tədrisəyə nəhayət dərəcədə ehtiyacımız olduğu üçün 1894-cü ildə Naxçıvan şəhərində güşad olunan "Məktəbi-Tərbiyə"nin şagirdlərinin birinci sinfinin ikinci şöbəsinə bir il müddətində həftədə iki dəfə imla təriqilə yazdırdığım əxlaqa dair dərsləri yığıb bir risalə şəklində cəm etdim və bu risalənin mündəricatı əbnayi-millətin (millət oğulları anlamında – L.A.), xüsusən tərbiyə və təhsilə alışan balaların təhzibi-əxlaq (əxlaq təlimi anlamında – L.A.) və tənviri-əfkarına (fikirlərin aydınlaşması – L.A.) müavinət edəcək ümidilə "Nümuneyi-əxlaq" namı ilə mövsüm qıldım..." Dərslikdə 40 imla mətni verilmişdir. Şagirdləri müsbət əxlaqi keyfiyyətlərə və vərdişlərə yiyələndirmək məqsədi güdən Sidqi əsərdə müxtəlif tərbiyəvi-didaktik süjetlərə müraciət edir və lazım gəldikdə öz fikirlərinin şərhində bədii nəsr nümunələrinə yer verir. Dərslikdə "Ədəbli və tərbiyəli uşaq", "Doğruçul uşaq", "Yalançı uşaq", "Nəfsi salamat uşaq", "Xəsis və paxıl uşaq", "Ata-anasını və müəllimini sevən uşaq" və sair başlıqlar altında imla mətnləri verilir. "Nəfsi salamat uşağın hekayəsi" adlanan iyirmi dördüncü imla mətnində müəllif maraqlı tərbiyəvi süjetdən istifadə etmişdir. Hekayədə oxuyuruq: "Bir möhtərəm şəxsin dörd oğlu var idi. Həmişə onların təlim və tərbiyəsinə məşğul olub, balalarının nəşvü-nüma etməsindən qəlbini şad və məsrur edərdi. O uşaqların böyüklüyündə bir-birinə nisbət adları budur: Firuz, Bəhram, Rauf, Əziz. Bir gün qohumlarının evlərindən onlara bir neçə hulu göndərmişdilər. Atası ondan oğlanlarının hər birinə birini verdi. Axşam taamından sonra verdiyi hulunun nəyə və necə sərf olunduğunu oğlanlarından sual eylədi.

Firuz dedi: – Mən onu satdım bir qiymətə ki, hulunun bol və firavan vaxtında o məbləğə beş girvənkə almaq mümkündür.

Ondan sonra Bəhram dedi ki, mən yedim. Çox şirin və lətif meyvə idi. Amma dənəsini saxlamışam ki, bağçamızda əkim. Bəlkə, gələcəkdə biz də bir elə meyvə ağacına malik olaq. Üçüncü oğlu Rauf dedi: – Ey mehriban ata, mənə verdiyin hulunun nisfini (yarısını) özüm yedim və nifsini verdim anama. Çünki mən anamı o biri qardaşlarımdan çox istərəm.

Sonra Əziz nəhayəti-ədəb ilə dedi ki, ey ata, sən mənə hulunu verəndən sonra xatirimə düşdü ki, qonşumuzun oğlu Əyyub ki mənim məktəb yoldaşımdır və neçə gündür ki, naxoşdur, onu yoluxmağa getdim. Əhvalını soruşub hulunu qoydum onun yasdığının yanına. Atası bu sözləri eşitcək oğlunu qucaqlayıb öpüb, sevib, "afərinlər" söylədi".

Bu tərbiyəvi təsvirdən sonra Sidqi şagirdlərə müraciətlə yazır: "Ey mənim oğlanlarım! İndi diqqətlə mülahizə edib bu uşağımın halına dürüst mütəvəcceh olanda insana nə qədər fərəh üz verir ki, bu balaca uşağın fikrində və xəyalında nə qədər insaniyyət havası və nəfsi bütünlük əlaməti görünür. Doğrudan, çox afərin və mərhaba olsun bizim bu əzizimiz olan Əziz adlı uşağa ki, o, xırda vaxtında məktəb yoldaşının fikrinə qalanda, məlumdur ki, böyüyəndə nə qədər rəhmdil və insaniyyətli və nəfsi salamat adamlardan olacaqdır. Həmişə öz qohum və əğrəbasının, ata və anasının, millətinin və dövlətinin asayiş və istirahət və tərəqqisinin fikrinə qalacaqdır..."

Görkəmli pedaqoq-alim M.T.Sidqi "Nümuneyi-əxlaq" dərsliyində şagirdlərinə aşağıdakı kimi səslənir: "Ey mənim cəsur şagirdlərim!", "Ey mənim xoşəxlaq şagirdlərim!", "Ey mənim təmkinli şagirdlərim!", "Ey mənim zirək və huşyar şagirdlərim!", "Ey mənim doğruçu şagirdlərim!", "Ey mənim qeyrətli şagirdlərim!" və sair. Bu kimi yanaşmalarla Sidqi şagirdlərə cəsur, xoşəxlaq, təmkinli, qeyrətli olmağı təlqin etməklə pedaqoji ustalıqdan da məharətlə istifadə etmişdir.

Bildiyimiz kimi, Azərbaycan məktəb və pedaqoji fikir tarixində pedaqogika dərsliyinin tərtibinə ilk təşəbbüs göstərən Məhəmməd Tağı Sidqi olmuşdur. Görkəmli pedaqoq-alim Sidqinin "Pedaqogika" dərsliyi göstərir ki, Sidqi Azərbaycanda pedaqoji fikrin inkişafına müstəsna xidmət göstərmiş simalardan olmuşdur. Məlumdur ki, Sidqiyə qədər bir sıra Azərbaycan ziyalıları, yazıçıları və maarifçiləri yeri gəldikcə öz əsərlərində tədris, təlim-tərbiyə, maarif və məktəb haqqında müxtəlif dəyərli fikirlər irəli sürmüşlər. Lakin Sidqi qədər pedaqoji sahədə fərqlənməmişlər. Bunlara həm Sidqinin bütün pedaqoji yaradıcılığı, həm də onun əlyazması şəklində tərtib etdiyi "Pedaqoqiya" dərsliyi əsaslı sübutdur.

Məhəmməd Tağı Sidqinin ən böyük maarifçilik ideyalarından biri də Naxçıvanda "Qız məktəbi" açmasına təşəbbüs göstərməsi və çətinliklə də olsa, bu arzu və istəyinə nail olmasıdır (1896). Bildiyimiz kimi, cahil və fanat mollaların, axundların, zahidlərin baxışlarına görə, qızların oxuması, məktəblərdə təhsil alması dinə qarşı çıxmaq kimi dəyərləndirilirdi. Məhəmməd Tağı Sidqi isə "Qurani-Kərim"dən ayələr göstərərək insanları inandırmağa çalışırdı ki, qızların təhsil almasında heç bir qadağa yoxdur. Sonralar bu mənzərəni Sidqinin müasiri Məşədi Zeynalabdın belə xatırlayır: "Mirzə Təqi müəllimlə mollaların, müştəyidlərin bərk davası düşdü... Onlar istəmirdilər ki, Sidqi müəllim qızları oxutsun. Əslinə baxsan, heç bizim də könlümüz yox idi. Elə ki Mirzə Təqi müəllim qızların oxumasını "Quran"ın da tələb etdiyini camaata oxuyub göstərdi, daha şəkk olmadı".

Ümumiyyətlə, Sidqinin yaşadığı dövrdə fanat mollalar, axundlar nəinki qızların və ya oğlanların məktəbə cəlb olunmalarına, habelə qəzet oxumağa belə pis nəzərlə baxır və şəriətdən kənara çıxmaq kimi dəyərləndirirdilər. Sidqi açıq şəkildə yazırdı ki, din alimlərinin nəzərində qəzet almaq və oxumaq küfrdür. Din alimlərinin təsiri altında varlılar, tacirlər, əsnaflar, avamlar və başqaları da qəzet alıb oxumağı günah, yaxud da, ümumiyyətlə, müsəlmanları yoldan çıxarmaq kimi başa düşürlər: "Qəzetə almaq, qəzetə oxumaq üləma mülahizəsində küfrdür, tüllab nəzərində günah, tüccar içində təzyin-ofqat, əsnaf arasında ləğviyyat və avam yanında lap heç zaddır. Özgə yerləri bilməyirəm, hələ bu tərəflərdə bir para ... tələbələrin nəzərində (ki zatən türk oğlu türkdür) türki dilində hər nə yazılmış olsun, şayani-etina deyildir. Qəzetə ki olsa, pənah bərxuda! Həmçinin onun əqidəsinə görə, farsi dilində yazılan ruznamələrə də baxmaq günahdır. Bunu da mübaliğəsiz deyirəm. Hərgah eşitsə ki, ərəb lisanında qəzetə nəşr olunur, günahi-kəbirə (böyük günah) hesab edib və onun mühərririni kafiri-mütləq bilir. Ondan ötrü ki, ərəb lisanı Allah və peyğəmbər lisanıdır ki, onunla "Qurani-məcid" nazil olub. O dildə qəzetə yazmaq, əlbəttə, cürmi-əzimdir. Odur ki, bir para maarifpərəst binəvalar və millətdust biçarələr labüd qalıb "qəzet" kəlməsini zikr etməyi dillərində adət verməyiblər".

M.T.Sidqi qəzet haqqındakı düşüncələrini aşağıdakı sözlərlə ümumiləşdirir: "...Mehriban qardaşlar! Səyli yoldaşlar! Qeyrət dəmidir. Fürsət zamanıdır. Qəflət etməyəlim. Maarifə meyil edəlim. Cəhalətdən çıxalım. Qəzet oxuyalım! Qəzet oxuyalım! Qəzet oxuyalım!"

***Yekun olaraq qeyd edək ki, M.T.Sidqi bir vətənpərvər maarifçi kimi bütün yaradıcılığı boyu mütəmadi olaraq milli-demokratik mövqedən çıxış etmiş, vətən və millətin maariflənməsi yolunda yorulmadan çalışmışdır. M.T.Sidqi Azərbaycan məktəb və pedaqoji fikir tarixində milli məramı düzgün dərk etmiş, özünün maarifçi-publisist fəaliyyətində bu müqəddəs məramа axıra qədər sadiq qalmışdır.***

**Lalə ALLAHVERDİYEVA**
*pedaqogika üzrə fəlsəfə doktoru*

# Görkəmli ədibin yaradıcılığından nümunələr

## Məktəb

Məktəb nədir? Məktəb bizim elm və maarifimizin vasitəsi, dünya və axirətimizin səadətinin səbəbidir. Elm və ədəb bir xəzinəyə bənzər ki, onun açarı məktəbdir. Bizləri nadanlıq zülmətindən qurtarıb nuri-mərifətə yetirən məktəbdir. Çünki insanın qədr və qiyməti elm ilə bilinir. Yəni elmi və mərifəti nə dərəcədə olsa, habelə dəyəri və qiyməti o qədərdir. Pəs insanın əsl qiyməti bildiyi və öyrəndiyi şeylərdən ibarət imiş ki, o da məktəb ilə hasil olur.

Məktəb cəhalət dərdinin dərmanı və mərifət bağının xiyabanıdır ki, həmişə cahilləri alim və divanələri aqil eylər. İllərcə məktəbə gedib tərbiyə və ədəb kəsb etməyən kimsələr və məktəbdə ömür keçirib, ülum və fünundan bəhrəmənd olmayan şagirdlər rəngarəng güllər və çiçəklər ilə müzəyyən bir bağçada gəzib dolanan kora bənzərlər. Məktəb də bir cismə bənzər ki, onun ruhu müəllimdir. Məktəb müəllimlərinin ülum və fünuna dara və adabi-elm və tərbiyəyə sahib vüquf olmaları hər bir halda şərtdir. Hər halda elmin ləzzətin anlayan şagirdə məktəb bir gülüstani-behcətdir. Amma tənbəl və qeyrətsiz uşaqlara məktəb bir zindani-əziyyətdir. Mən məktəbi sevən şagirdlərdən olmalıyam. Hər gün sevgili məktəbimizin həvasınca uçmalıyam.

Məktəbimizi sevmək qədərincə müəllimlərimizi də sevirəm. Çünki onlar hər gün mənə bilmədiyim şeyləri öyrədirlər. Müəllimlərimizi sevən kimi kitablarımı və dəftərlərimi də sevirəm. Çünki onlar mənim elm öyrənməyimə səbəbdir. Mən kitabımı və dəftərlərimi kirli və çirkli etməyəcəyəm. Məktəbdən və müəllimlərdən və kitabımdan daha artıq ata və anamı sevirəm. Çünki mənim zəhmətlərimi çəkib, böyüdüb, məktəbə qoyan onlardır.



## Dərsə diqqət

*Ey uşaqlar, edək biz də qeyrət,*
*Taki təhsil edək adəmiyyət.*
*Bəlkə, bizdən gedə bu cəhalət,*
*Çəkməyək xalqdan bari-minnət.*
*Keçməmiş, keçməmiş vaxt-fürsət,*
*Eyləyək, eyləyək dərsə diqqət.*

*Elm təhsil edən oldu rahət,*
*Elmsizlər çəkər çox məşəqqət.*
*Hər o kəs elmdən tapsa qismət,*
*Çəkməz axırda hərgiz nidamət.*
*Keçməmiş, keçməmiş vaxt-fürsət,*
*Eyləyək, eyləyək dərsə diqqət.*

*Çox tərəqqi tapıb cümlə millət,*
*Biz də təhsil edək istirahət.*
*Ciddü cəhd eyləsin əhli-qeyrət,*
*Bəlkə, gəlsin ələ elmü sənət.*
*Keçməmiş, keçməmiş vaxt-fürsət,*
*Eyləyək, eyləyək dərsə diqqət.*

*Söyləyin cümlə yarü rəfiqə,*
*Vaxtımız etsin bir dəqiqə.*
*Bir dəqiqə bizə filhəqiqə,*
*Artırır hədsiz qədrü qiymət.*
*Keçməmiş, keçməmiş vaxt-fürsət,*
*Eyləyək, eyləyək dərsə diqqət.*

## Tərbiyənin təfavütü

İki bacının hər birisinin bir oğlu var idi. Onlar oğlanlarına bir-birindən təfavütlü surətdə tərbiyə verirdilər. Birisi adabi-tərbiyətə aşna olmadığı üçün oğlunun məzacına görə hərəkət edib və onun nazı ilə oynardı. Və balasının hər bir xahişini yerinə yetirdikcə onun xülqünü pozub daryekini üzərdi. Bu əziz və ərköyün balanın xörəyinin əndazəsi və yatıb durmağının vədəsi yox idi. Hər növ konfet və hər qisim meyvə və hər cürə oyuncaq, bəlkə, hər bir ağlına gələn şeyi istədiyi vaxtda hazır olmasaydı, ağlayıb, çığırıb, bağırıb özünü yerdən-yerə vurardı. Tərbiyət aləmindən bixəbər olan anası da istər zərərli olsun, istər faydalı olsun, balasının hər bir istədiyini və arzusunu əmələ gətirməyi müzayiqə etməzdi. Amma o birisi oğlunu ağuşi-tərbiyətində saxlayıb, pərvəriş verdikcə və analıq məhəbbətin əmələ gətirdikcə yenə balasına lazımınca nəsihət, tənriyə və cəza etməkdən geri durmazdı. Əvvəlincinin oğlu çox yeməkdən zəif olub və çox yatmaqdan tənbəlləşib, xudsər və azadə gəzməkdən tərbiyəsiz və elmsiz qaldı. Amma digərinin hər bir şeyi diqqət və qərarınca yeyib və içib, anasının nəsihətlərinə əməl edib bir çalışqan və zəhmətsevən uşaq oldu ki, böyüdükcə elm və tərbiyət sayəsində validəsinə, vətəninə, millətinə və dövlətinə böyük xidmətlər eylədi. Bəs bundan məlum olur ki, insanın hər bir halının nəticəsi uşaq vaxtında verilən təlim və tərbiyənin əsəri və səmərəsidir. Məşhur hükəmadan Ərəstu deyibdir ki, uşağın pisliyi və yaxşılığı valideyninə həml olunur. Çünki övlad ata və ananın bir nisfidir.

## Məktəbdə

***Əcəb xöşbəxt olur hər kəs,***
***Tutub məba bu məktəbdə.***
***Cəhalətdən çıxar hər kim,***
***Edə sükna bu məktəbdə.***

***Cəhalət adamı eylər,***
***Yəqin heyvandan bədtər.***
***Gər insaniyyət axtarsan,***
***Olur peyda bu məktəbdə.***

***Məadi-elmi, maaşi-elmi,***
***Tapıbdır rövnəqi-tazə.***
***Bəhəmdülla olur hasil,***
***İki dünya bu məktəbdə.***

***İki aləmdə insanı***
***Dirildən elmdir, billah.***
***Nə qədər mürdədil olasan,***
***Olur ehya bu məktəbdə.***

***Odur ki, qədrsiz zərrə,***
***Dönər mehri-dirəxşanə***
***Ki, guya qətreyi-naqis***
***Olur dərya bu məktəbdə.***

***Maarif kəsb edən kimsə***
***Gərək bu məktəbə gəlsin.***
***Bir az vaxta kamalata***
***Olur dara bu məktəbdə.***

**Cəhd qıl, qoy zamanədə bir ad,**
**Eyləsinlər səni bu adla yad.**

**Millətin haqqını əda eylə,**
**Məscidü-mədrəsə bina eylə.**

**Aç bu əbnayi-millətə məktəb,**
**Orda təhsil olunsun elmü ədəb.**

# Sidqi istəyirdi ki...
## Müasir Naxçıvan məktəbləri















Göy qurşağı
"Şərq qapısı"nın ədəbiyyat əlavəsi

Məsul şəxs
Səyyar MƏMMƏDOV

Redaksiya heyəti
Asim Yadigar, Yavuz Axundlu, Hüseyn Həşimli, Əbülfəz Amanoğlu, Xanəli Kərimli, Muxtar Qasımzadə, Əbülfəz Əzimli, Qafar Qərib

## Noyabr ayında 10 min 492 sərnişin dəmir yolu nəqliyyatından istifadə etmişdir

***Muxtar respublikada dəmir yolu nəqliyyatı infrastrukturunun müasir tələblərə uyğunlaşdırılması, sərnişin və yükdaşımalarının keyfiyyətinin artırılması və təhlükəsizliyinin təmin edilməsi diqqət mərkəzində saxlanılır. Bu sahədə yaradılan şərait xidmətin səviyyəsinin yüksəldilməsinə və nəticədə, nəqliyyatın bu növündən istifadə edənlərin sayının artmasına səbəb olmuşdur. Digər tərəfdən böyükhəcmli və ağırçəkili yüklərin daşınmasında dəmir yolu nəqliyyatından geniş istifadə olunur.***

Bu ilin noyabr ayında muxtar respublika üzrə dəmir yolu nəqliyyatından 10 min 492 sərnişin istifadə etmiş, "Naxçıvan Dəmir Yolları" Məhdud Məsuliyyətli Cəmiyyətinin Yük və Sərnişin Daşımaları İdarəsi tərəfindən muxtar respublika ərazisində 11 min 330 ton müxtəliftəyinatlı yük daşınmışdır.

Hərəkətin davamlılığının və təhlükəsizliyinin təmin olunması məqsədilə qatarların və yolların sazlığına daimi nəzarət olunur. Ötən ay ərzində elektrovozlar 3, teplovozlar isə 2 dəfə texniki baxışdan keçirilmiş, elektrovozlarda cari təmir işləri aparılmışdır. Bu dövr ərzində Culfa Vaqon Deposunda noyabr ayında sərnişin və digər təyinatlı 6 vaqon cari təmir edilmişdir. Həmçinin İnfrastruktur İdarəsinin xidməti ərazisində baş və stansiya yollarına mütəmadi baxış keçirilmiş, yağış və leysan sularının maneəsiz ötürülməsi üçün süni tikililər, küvetlər və yol yataqları torpaq, çınqıl, daş və tullantılardan təmizlənmişdir. Relslərdə təhlükəsiz dövretmənin təmin olunması məqsədilə 23 dəst R-50 tipli izomaterial işlədilmiş, xidməti ərazidə 140 yararsız şpal yenisi ilə əvəz edilmişdir. Defektoskop briqadası tərəfindən 92 kilometr baş yol, 14 kilometr stansiya yolları, 28 dəst yoldəyişdirici qurğu və 4 min 280 qaynaq calağı yoxlanılmış, yolda olan nasazlıqlar aradan qaldırılmışdır.

Sərnişinlərin payız-qış mövsümündə rahat gediş-gəlişini təmin etmək üçün bütün sərnişin vaqonları yoxlanılaraq mövsümə tam hazır vəziyyətə gətirilmişdir. Təhlükəsizlik İdarəsinin balansında olan yanğın avtomobilində və aqreqatlarda texniki müayinə aparılaraq yanacaq ehtiyatı yaradılmışdır. Hazırda bir sərnişin vaqonunda istilik sisteminin bərpası istiqamətində əsaslı təmir işləri davam etdirilir.

2014-2015-ci illərin payız-qış mövsümünə hazırlıqla əlaqədar idarələrin ərazilərinə, yolun torpaq yatağına, yolun üst quruluşuna, enerji təchizatına, dartı yarımstansiyalarına, kontakt şəbəkəsinə, işarəvermə və rabitə qurğularına baxış keçirilmişdir. Baxış zamanı aşkar edilmiş nöqsanların əksəriyyəti ötən ay ərzində aradan qaldırılmış və bu istiqamətdə işlər davam etdirilməkdədir. Rabitə və işarəvermə sahəsi üzrə stansiyalarda da qatarların hərəkətinin təhlükəsizliyinin təmin olunması məqsədilə işlər davam etdirilmişdir. Bu məqsədlə 25 müxtəliftipli rele dəyişdirilmiş, Aza, Yaycı, Qarabörk, Şərur stansiyalarında və 2 lokomotivdə radio-rabitə avadanlıqlarının nasaz hissələri dəyişdirilmiş, radio-rabitə əlaqəsi texniki normaya uyğun tənzimlənmişdir. Enerji sahəsi üzrə Culfa-Dərəşam və Culfa-Vəlidağ yan xətlərində yararsız vəziyyətdə olan 1 ədəd 10 kilovoltluq ayırıcı dəyişdirilmiş, Şərur stansiyasında alçaqgərginlikli 350 metr hava xətti yenilənmişdir.

Muxtar respublikamızda geniş vüsət alan tikinti-quruculuq işləri "Naxçıvan Dəmir Yolları" Məhdud Məsuliyyətli Cəmiyyətinin tabeliyindəki obyektləri də əhatə etmişdir. Əksər idarə və yardımçı binalar ətraf əraziləri də daxil olmaqla müasir üslubda yenidən qurulmuş, həmin strukturlarda işçilər üçün hər cür şərait yaradılmışdır. Bu tədbirlərin davamı olaraq, noyabr ayında da Texniki İnzibati Binaların Təmir-Tikinti İdarəsi tərəfindən Ordubad stansiyası idarəetmə mərkəzində əsaslı təmir işləri aparılmış, rayon Yol Sahəsinin inzibati binasının və dəmiryol sərnişin vağzalı binasının tikintisi davam etdirilmişdir. Hazırda İnfrastruktur İdarəsinin inzibati binasında, 110/35/10 kilovoltluq Naxçıvan dartı yarımstansiyası binasında və ətrafdakı bütün dəmiryol obyektlərində son tamamlama işləri aparılır.

*Sərnişin və yükdaşımaların həcminin artırılmasına, təhlükəsiz və etibarlı nəqliyyat xidmətinin təmin olunmasına hesablanmış bu cür tədbirlər bundan sonra da diqqət mərkəzində saxlanılacaq, dəmir yolu nəqliyyatı sisteminin inkişafı istiqamətində ardıcıl tədbirlər görüləcəkdir.*

***"Naxçıvan Dəmir Yolları" Məhdud Məsuliyyətli Cəmiyyəti***

***Muxtar respublikada əhalinin məşğulluğunun təmin olunması və peşə hazırlığı, işçilərin əmək hüquqlarının qorunması, sağlamlıq imkanları məhdud şəxslərin tibbi və sosial reabilitasiyası istiqamətində həyata keçirilən tədbirlər bu ilin noyabr ayı ərzində də davam etdirilmişdir.***

***İşaxtaran və işsiz vətəndaşların sosial müdafiəsinin gücləndirilməsi ötən ay ərzində diqqət mərkəzində saxlanılmış, onların münasib işlə təmin olunması məqsədilə aktiv məşğulluq tədbirləri həyata keçirilmişdir. Belə ki, bu dövrdə 183 işaxtaran vətəndaş məşğulluq xidməti orqanlarında qeydiyyatda olan vakant iş yerlərinə, 4 nəfər haqqıödənilən ictimai işlərə, sosial müdafiəyə xüsusi ehtiyacı olan və işə düzəlməkdə çətinlik çəkən 21 şəxs kvota yerlərinə göndərilmiş, 44 nəfər isə müvafiq peşə kurslarına cəlb edilmişdir.***

## Muxtar respublikada əhalinin məşğulluğunun təmin olunması diqqət mərkəzindədir

Noyabr ayında əmək bazarının tələbləri nəzərə alınaraq Naxçıvan Regional Peşə Tədris Mərkəzində təşkil olunan "qazanxana maşinisti" və "qadın bərbəri" peşələrini 46 nəfər bitirmişdir. Hazırda "dərzi", "bərbər", "aşpaz köməkçisi", "qazanxana maşinisti", "qaz təsərrüfatının istismarı və təmiri üzrə nəzarətçi-çilingər", habelə Penitensiar Xidmətin Cəzaçəkmə Müəssisəsində təşkil edilmiş "kompüter istifadəçisi" peşələri üzrə kurslar davam etdirilir. Həmçinin sağlamlıq imkanları məhdud şəxslərin məşğulluğu da təmin olunmuş, fiziki imkanları məhdud 24 şəxs tərəfindən toxunmuş 1157 cüt yun corab hərbi hissələrə təhvil verilmişdir.

Qeyri-formal məşğulluğun qarşısının alınması, işə götürülən şəxslərlə əmək müqaviləsinin bağlanması nazirliyin müvafiq qurumları tərəfindən daim diqqət mərkəzində saxlanılır. Noyabr ayında əməkhaqlarının reallığı əks etdirməsi ilə bağlı 24 sahibkarlıq obyektində nəzarət aparılmış, 21 halda yeni əmək müqaviləsinin bağlanmasına, 54 halda isə əməkhaqqının real göstərilməsinə nail olunmuşdur. İşəgötürənlər tərəfindən işçilər üçün müvafiq əmək şəraitinin yaradılmasına, istehsal müəssisələrində işçilərin əməyin mühafizəsi qaydalarına riayət etməsinə nəzarət məqsədilə 44 müəssisə və tikinti sahəsində yoxlamalar aparılmış, əməyin mühafizəsi sahəsində mövcud nöqsanların aradan qaldırılmasına dair 12 halda icrası məcburi olan göstəriş tərtib edilmişdir. Monitorinqlər zamanı fərdi mühafizə vasitələrindən istifadə etməyən 84 işçi aşkarlanmış, bunlardan 58-i həmin vasitələrlə təmin olunmuş, 26-sı isə tikinti sahəsindən uzaqlaşdırılmışdır.

Əmək fəaliyyəti ilə məşğul olan vətəndaşların sığorta olunması müasir dövrün əsas tələblərindəndir. Bu istiqamətdə işlər ötən aylarda olduğu kimi, noyabr ayında da nəzarətdə saxlanmış, mütəmadi təşkil edilmiş, 14 müəssisədə işçilərlə istehsalatda bədbəxt hadisələr və peşə xəstəlikləri nəticəsində peşə-əmək qabiliyyətinin itirilməsi hallarından icbari sığorta müqavilələri bağlanmışdır. Həmçinin əməyin mühafizəsi üzrə tələbların pozulmasına görə 2 işəgötürənə, ümumilikdə, 2 min manat məbləğində cərimə tətbiq olunmuşdur.

Xüsusi qayğıya ehtiyacı olan şəxslərin və ailələrin sosial təminatı da daim diqqət mərkəzində saxlanılır. Müvafiq kateqoriyadan olan şəxslərə, habelə aztəminatlı ailələrə sosial müavinət və ünvanlı dövlət sosial yardımlarının ödənişi davam etdirilmiş, bu məqsədlə, ümumilikdə, 1 milyon 178 min 534 manat vəsait sərf olunmuşdur. Ötən ay ərzində Naxçıvan Muxtar Respublikası Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi ilə birlikdə üç aztəminatlı ailəyə baş çəkilmiş, ailə üzvləri tibbi müayinədən keçirilmiş, onlara ehtiyacına uyğun məişət əşyaları verilmişdir. Tənha yaşayan və başqasının yardımına ehtiyacı olan 507 ahıl və fiziki imkanları məhdud şəxslərə evlərində sosial-məişət xidməti göstərilmiş, Naxçıvan Əlillərin Bərpa Mərkəzində 24 sağlamlıq imkanları məhdud şəxsin, Naxçıvan Uşaq Bərpa Mərkəzində sağlamlıq imkanları məhdud 34 uşağın müalicəsi təşkil edilmişdir. Bundan başqa, 4 nəfərə sanatoriya və müalicə pansionatına göndəriş verilmiş, 75 nəfər texniki reabilitasiya vasitələri ilə təmin olunmuş, 66 məhdud fiziki imkanlıya səyyar protez-ortopedik xidmət göstərilmişdir. Ahıllar evinin sakinlərinin tibbi müayinədən keçməsi də bu sahədə görülən işlərin tərkib hissəsi kimi mühüm əhəmiyyət kəsb etmişdir.

Muxtar respublikada sağlamlıq imkanları məhdud uşaqların təhsilə cəlb olunmaqla cəmiyyətin fəal üzvü kimi formalaşması yönündə görülən işlər məqsədəuyğun şəkildə davam etdirilir. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2013-cü il 18 dekabr tarixli Sərəncamı ilə təsdiq edilmiş "2014-2015-ci illərdə Naxçıvan Muxtar Respublikasında sağlamlıq imkanları məhdud uşaqların təhsilə cəlbi üzrə Dövlət Proqramı"na uyğun olaraq, Məhdud Fiziki İmkanlılar üçün Regional İnformasiya Mərkəzində Distant Tədris Mərkəzi fəaliyyətə başlamışdır. Həmçinin bu kateqoriyadan olan uşaqların məktəblərə cəlb olunması, onların məktəbli forması, çanta və dərs ləvazimatları ilə təmin olunması da həyata keçirilmişdir. 2014-cü ilin noyabr ayında da təhsilə cəlb olunmuş sağlamlıq imkanları məhdud uşaqlarla bağlı yaranan çətinliklərin aradan qaldırılması və bu sahədə görülən işlərə nəzarət məqsədilə Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin müvafiq əmri ilə yaradılmış komissiya tərəfindən təhsil müəssisələrində monitorinqlər davam etdirilmiş, məktəb və məktəbəqədər müəssisələrdə tolerant mühitin yaradılması məqsədilə növbəti maarifləndirici tədbir keçirilmişdir. Bundan başqa, noyabr ayında görmə qabiliyyəti məhdud şəxslər üçün nəşr olunan "Könül işığı" adlı brayl jurnalının növbəti nömrəsi hazırlanaraq Məhdud Fiziki İmkanlılar üçün Regional İnformasiya Mərkəzinin audiokitabxanasının kataloquna daxil edilmişdir. 13 noyabr – Beynəlxalq Gözdən Əlillər Günü münasibətilə audiokitabxananın 10 fəal dinləyicisi ilə, eləcə də Naxçıvan şəhərində və muxtar respublikanın rayonlarında görmə qabiliyyəti məhdud şəxslərlə görüşlər keçirilmiş, onlara sovqatlar verilmişdir. Görmə qabiliyyəti məhdud insanlar arasında brayl yazı müsabiqəsinin təşkil olunması müvafiq kateqoriyadan olan şəxslərin asudə vaxtının səmərəli təşkili, ən əsası isə onların istedadlarının üzə çıxarılması və cəmiyyətə inteqrasiyasına xidmət edən tədbirlərdəndir.

***Muxtar respublikada əhalinin sosial təminatının həlli istiqamətində görülən işlər ardıcıl xarakter almaqla növbəti aylarda da davam etdiriləcəkdir. Bu məqsədlə Naxçıvan Muxtar Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin kollektivi öz işini bundan sonra da günün tələbləri səviyyəsində quracaqdır.***

***Naxçıvan Muxtar Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin mətbuat xidməti***

## Prokurorluq orqanları maarifləndirici tədbirləri davam etdirir

*Şərur Rayon Prokurorluğunun əməkdaşları növbəti maarifləndirici tədbiri Yengicə kəndində keçiriblər. Əvvəlcə rayon prokuroru vəzifəsini icra edən baş ədliyyə müşaviri Kamil Şükürov "Enerji resurslarından səmərəli istifadə enerji təhlükəsizliyinin təminatında mühüm faktordur" mövzusunda məruzə ilə çıxış edib.*

Qeyd olunub ki, böyük dövlət qayğısı nəticəsində muxtar respublikamızda əhali fasiləsiz elektrik enerjisi və təbii qazla tam təmin edilib. Hazırda qarşıda duran başlıca vəzifə enerji resurslarından səmərəli istifadə olunmasından ibarətdir. Hər bir idarə, müəssisə və təşkilat, eləcə də hər bir vətəndaş elektrik enerjisindən və təbii qazdan səmərəli istifadə etməli, israfçılığa, qanunsuz istifadə hallarına yol verilməməlidir.

Bildirilib ki, yanacaq-enerji kompleksinin daha da inkişaf etdirilməsi, əhalinin və iqtisadiyyatın enerji resursları ilə təminatının yaxşılaşdırılması, enerji daşıyıcılarından istifadənin səmərəliliyinin artırılması məqsədilə Azərbaycan Respublikası Prezidentinin 14 fevral 2005-ci il tarixli Sərəncamı ilə "Azərbaycan Respublikasında yanacaq-enerji kompleksinin inkişafı üzrə (2005-2015-ci illər) Dövlət Proqramı" təsdiq edilib. Bununla dövlətimizin yanacaq-enerji kompleksinin müasir tələblərə uyğun inkişafının əsas istiqamətləri müəyyənləşdirilib. Lakin bu sahədə müəyyən neqativ hallar hələ də mövcuddur. Bu halların qarşısını almaq məqsədilə Cinayət Məcəlləsinin mülkiyyət əleyhinə olan cinayətlər fəslinə yeni maddə – "Təbii qazın, elektrik və ya istilik enerjisinin talanması" maddəsi əlavə olunub və müvafiq qanunvericiliyimizdə bir sıra əməllər cinayət hadisəsi kimi təsbit edilib. Bu cür cinayət əməllərinin qarşısının alınması günümüzün vacib məsələlərindəndir və bu iş hər kəsin vətəndaşlıq borcu olmalıdır.

Rayon prokurorunun müavini, I dərəcəli hüquqşünas Anar Həsənov "Ekoloji-hüquqi məsuliyyət" mövzusundakı məruzəsinə Azərbaycan Respublikası Konstitusiyasının 39-cu maddəsində təsbit olunmuş tələbləri diqqətə çatdırmaqla başlayıb: "Heç kəs ətraf mühitə, təbii ehtiyatlara qanunla müəyyən edilmiş hədlərdən artıq təhlükə törədə və ya zərər vura bilməz". Bu, ölkəmizdə ekoloji tarazlığın qorunması, təbii ehtiyatlardan səmərəli istifadə olunması, bu sahədə mövcud hüquqi çatışmazlıqların tənzimlənməsi baxımından çox əhəmiyyətlidir.

Tədbir iştirakçılarının nəzərinə o da çatdırılıb ki, ekologiyadan qanunsuz istifadəyə görə inzibati məsuliyyət Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsindəki "Ətraf mühitin mühafizəsi, təbiətdən istifadə və ekoloji təhlükəsizlik qaydaları əleyhinə olan inzibati xətalar" fəslində, ekologiyadan istifadə sahəsində cinayət məsuliyyəti isə Azərbaycan Respublikası Cinayət Məcəlləsinin "Ekoloji cinayətlər" adlanan 28-ci fəslində öz əksini tapıb.

Sonda tədbir iştirakçılarını maraqlandıran suallar cavablandırılıb.

**Elman MƏMMƏDOV**

Naxçıvan Muxtar Respublikası Dövlət Sosial Müdafiə Fondunun (DSMF) şöbələri tərəfindən maarifləndirici tədbirlərin keçirilməsi davam etdirilir. Növbəti maarifləndirici tədbir Babək rayonunun Didivar kəndində keçirilib. Tədbiri Babək Rayon İcra Hakimiyyəti başçısının birinci müavini Əbdülhüseyn Zamanov açaraq tədbirin əhəmiyyətindən danışıb.

## Sığorta-pensiya sistemində elektron xidmətlərin tətbiqi genişləndirilir

Tədbirdə DSMF-nin Babək Rayon Şöbəsinin müdiri Natiq Hacıyev və Fərdi uçotun təşkili sektorunun müdiri Azər Məmmədov çıxış edərək son illər əldə olunan davamlı iqtisadi yüksəlişin, həyata keçirilən islahatlar və sosial müdafiə sisteminin müasir əsaslarla təkmilləşdirilməsinin ölkəmizdə sosial problemlərin həllində önəmli əhəmiyyətə malik olduğunu, pensiyaçıların rifah halının yaxşılaşdırılmasına imkan yaratdığını vurğulayıblar. Bildirilib ki, bütün bu uğurlar sığorta-pensiya sistemində də yeniliklərin həyata keçirilməsinə səbəb olub, bu sahədə informasiya və kommunikasiya texnologiyalarının səmərəli tətbiqinə başlanılıb. "Məcburi dövlət sosial sığorta vəsaitlərinin onlayn ödənilməsi" elektron xidməti sığortaedənlər, o cümlədən işəgötürənlər, sahibkarlıq fəaliyyəti ilə məşğul olan fiziki şəxslər, torpaq mülkiyyətçiləri tərəfindən məcburi dövlət sosial sığorta haqlarının ödənilməsi prosesini xeyli asanlaşdırıb.

Qeyd edilib ki, istifadəyə verilən elektron xidmətlər içərisində avtomatlaşdırılmış pensiya təyinatı və pensiya kalkulyatoru mühüm yer tutur.

Vurğulanıb ki, əmək qabiliyyətinin müvəqqəti itirilməsinə görə müavinətlə bağlı haqq-hesab cədvəlinin, hamiləliyə və doğuma görə haqq-hesab cədvəlinin, uşağın anadan olmasına görə müavinətlə bağlı haqq-hesab cədvəlinin, uşağın üç yaşına çatanadək ona qulluq etməyə görə müavinətlə bağlı haqq-hesab cədvəlinin təqdim olunması, pensiyaçıya məlumatın verilməsi, pensiya təyinatı və pensiya növünün dəyişdirilməsi üçün müraciətlərin və sənədlərin qəbulu üzrə elektron xidmətlər də noyabr ayında istifadəyə verilən sosial xidmətlər içərisindədir. Bununla da, fond tərəfindən göstərilən aktiv elektron xidmətlərin sayı 10-a çatmışdır.

Sonda iştirakçıların sığorta-pensiya sistemi və bu sahədə elektron xidmətlərin tətbiqi barədə sualları cavablandırılıb.

***Naxçıvan Muxtar Respublikası Dövlət Sosial Müdafiə Fondunun mətbuat xidməti***

# Naxçıvanda muğamın təbliği, gənc nəslə aşılanması məqsədilə görülən işlər təqdirəlayiqdir

**Muxtar respublikada 1995-2014-cü illərdə bütün sahələr kimi, mədəniyyət sahəsi də əsl intibaha qovuşub. Naxçıvan Muxtar Respublikasında 350-dən yuxarı mədəniyyət obyektinin tikiləərək və ya yenidən qurularaq istifadəyə verilməsi regionda mədəniyyətin inkişafına real təminat yaradıb. Bunu region sakinləri ilə yanaşı, buraya ölkə paytaxtından, digər bölgələrdən, xarici ölkələrdən gələn qonaqlar da görür və yüksək dəyərləndirirlər. Yeri gəlmişkən onu da qeyd edək ki, mədəniyyətin belə sürətli inkişafı qədim diyara görkəmli sənət adamlarının, incəsənət ustalarının marağını xüsusilə artırıb. Hər il Bakı şəhərindən muxtar diyarımıza qonaq gələn, öz çıxışları ilə region sakinlərinə mədəni xidmət göstərən sənət adamları Naxçıvanın, onun mədəniyyətinin inkişafından ağızdolusu danışırlar. Ötən həftə Azərbaycanın bir qrup tanınmış müğənnisi muxtar respublikamızda olub, Naxçıvan şəhərindəki Heydər Əliyev Sarayında geniş konsert proqramı ilə çıxış edib. Konsertdən sonra Azərbaycan Respublikasının Xalq artisti Aygün Bayramova ilə görüşüb həmsöhbət olduq.**

*– Aygün xanım, naxçıvanlılar sizi muğam sənətinin mahir ifaçısı və təbliğatçısı kimi tanıyır və sevirlər. Budəfəki ifanız da bizə xoş ovqat bəxş etdi...*



– Əvvəla onu deyim ki, mən qədim və ulu Azərbaycan torpağı olan Naxçıvanda dəfələrlə olmuşam. İlk dəfə mərhum sənətkarımız Həsənağa Qurbanovun rəhbərlik etdiyi Gülarə Əliyeva adına “Dan ulduzu” vokal instrumental ansamblının tərkibində Naxçıvana gəlmişəm və burada bir neçə konsertdə iştirak etmişəm. Naxçıvanın bütün bölgələrini gəzmişəm. Bütün rayonlarda konsertlərimiz olub. Səmimi deyim ki, hər dəfə gəlişimdə burada yeniliklə rastlaşıram. Naxçıvan şəhəri, həqiqətən, son illər ərzində daha da gözəlləşib. Əzmli Naxçıvan əhalisi muxtar respublika rəhbərinin diqqət və qayğısı ilə qurub-yaradır, quru çölləri gülüstana çevirir. Naxçıvan bu gün uğurlu və davamlı inkişaf yoluna qədəm qoyub. Şərqin qapısı sayılan bu qədim türk yurdu ən gözəl, ən abad diyarlardan birinə çevrilib. Tarixən öz kökünə, adət-ənənələrinə bağlı olan Naxçıvanın nailiyyəti Azərbaycanın nailiyyətidir. Buna görə də gördüyümüz hər yeniliyə biz ürəkdən sevindik, şad olduq.

*– Naxçıvanın mədəni mühitini necə dəyərləndirirsiniz?*

– Mən deyərdim ki, bu gün Naxçıvanda mədəniyyət özünün intibah dövrünü yaşayır. Xalqımızın qədim mədəni irsinin ölməz nümunəsi, Azərbaycan musiqisinin zəngin fəlsəfi təməl üzərində təşəkkül tapmasında əvəzsiz rol oynayan muğamın təbliği, gənc nəslə aşılanması Naxçıvan Muxtar Respublikasında da diqqət mərkəzindədir. Bu məqsədlə görülən işlər təqdirəlayiqdir. Muxtar respublikada bu istiqamətdə görülən işlər, muğam üçlüklərinin yaradılması, musiqi məktəblərində muğamın tədrisinə ciddi diqqət yetirilməsi neçə-neçə gənc ifaçının üzə çıxmasına şərait yaradıb. Çox sevinirəm ki, Naxçıvanda mədəniyyət bu dərəcədə inkişaf edib. Tarixən Naxçıvan Azərbaycan mədəniyyətinə, incəsənətinə dahi şəxsiyyətlər bəxş edib. Bu torpaq böyük şairlərin, yazıçıların, el sənətkarlarının, musiqiçilərin vətəni olub. İndi də bu ənənə uğurla davam etdirilir. Çox sevindirici haldır ki, bu gün Naxçıvanda Azərbaycan xalqının milli-mənəvi dəyərlərinin, adət-ənənələrinin, xalq mahnılarının, folklorunun, eləcə də milli irsimiz sayılan muğamın qorunub saxlanılmasına böyük diqqət yetirilir. Regionda yeni klublar, mədəniyyət evləri, musiqi məktəbləri tikilir. Uşaqların, yeniyetmə və gənclərin musiqi təhsili almaları üçün hər cür şərait yaradılır. Bilirəm ki, Naxçıvan 2018-ci ildə İslam mədəniyyətinin paytaxtı seçilib. Bu, muxtar respublikaya verilən yüksək qiymətdir. Bir mədəniyyət işçisi kimi mən əminəm ki, Naxçıvan bu şərəfli adı böyük qürurla daşıyacaqdır. Onu da qeyd etmək istəyirəm ki, muxtar respublikada musiqi sahəsində çalışan insanlara fəxri adların, təqaüdlərin, mükafatların verilməsi onların əməyinin ən yaxşı qiymətidir.

*– Son olaraq muğamlarımızın təbliği sahəsindəki işlər barədə nə deyə bilərsiniz?*

– Keçmişin klassik musiqi sərvəti olan muğamlar milli musiqi mədəniyyətimizin əhəmiyyətli bir hissəsini təşkil edir. Cəsarətlə demək olar ki, heç vaxt muğam sənətimiz belə qayğı ilə əhatə olunmayıb. Əksinə, bəzi vaxtlarda muğama barmaqarası baxanlar, onu vaxtı ötmüş sahə hesab edənlər olub. Heydər Əliyev Fondunun prezidenti, YUNESKO və İSESKO-nun xoşməramlı səfiri Mehriban xanım Əliyevanın böyük vətənpərvərliyi, xalqın milli sərvətinə canıyanarlığı bu gün muğamı layiq olduğu səviyyəyə qaldırıb. Muğam müsabiqələrinin keçirilməsi, istedadlı gənclərin bu sahədəki bacarıq və qabiliyyətlərinin üzə çıxarılması istiqamətində görülən işlər bütün musiqisevərlər tərəfindən rəğbətlə qarşılanır. Bakıda keçirilən muğam müsabiqələri bunun əyani ifadəsidir. Müsabiqələr sübut etdi ki, xalqımız minillik tarixi olan, illərin sınağından mətanətlə çıxan, cilalana-cilalana dövrümüzə gəlib çatan muğamı çox sevir. Mən burada olduğum müddətdə Naxçıvanda da muğama böyük maraq göstərildiyini görmüşəm. Son illər bu torpaqdan gənc muğam ifaçıları yetişir. Elə ötən il “Muğam Müsabiqəsi – 2013” televiziya müsabiqəsində naxçıvanlı gənc muğam ifaçısı Sərxan Bünyadzadənin qalib olmasını misal gətirə bilərəm.

***Müsahibə üçün sağ olun...***

**Müsahibəni apardı:**
✍ **Sara ƏZİMOVA**

## Naxçıvan Muxtar Respublikası üzrə 2014-cü ilin noyabr ayında verilən təbii qazın miqdarı, təbii qaz satışından toplanan vəsait və ödənilmə faizi barədə məlumat

| S/S | Şəhər və rayonlar | Təbii qazın həcmi (kubmetr) | Təbii qazın dəyəri ( manat) | Daxil olan vəsait (manat) | Ödənilmə faizi |
|---|---|---|---|---|---|
| 1. | Şərur rayonu | 1583071 | 158307 | 166217 | 105,0 |
| 2. | Sədərək rayonu | 245415 | 24542 | 24862 | 101,3 |
| 3. | Şahbuz rayonu | 513372 | 51337 | 51872 | 101,0 |
| 4. | Ordubad rayonu | 1144920 | 114492 | 115432 | 100,8 |
| 5. | Kəngərli rayonu | 613001 | 61300 | 61661 | 100,6 |
| 6. | Naxçıvan şəhəri | 2618236 | 261824 | 263324 | 100,6 |
| 7. | Culfa rayonu | 861930 | 86193 | 86605 | 100,5 |
| 8. | Babək rayonu | 1643550 | 164355 | 164355 | 100,0 |
| 9. | Muxtar respublikanın müəssisə və təşkilatları | 9367925 | 936385 | 922753 | 98,5 |
| **Naxçıvan Muxtar Respublikası üzrə cəmi:** | | **18591420** | **1858735** | **1857081** | **99,9** |

# Tibbi xidmətin əhatə dairəsi genişlənir

***Səhiyyə sistemində tibbi xidmətin əhatə dairəsini genişləndirmək, əhalinin hər bir təbəqəsinə keyfiyyətli tibbi xidmət göstərmək prioritet istiqamətlərdən biridir. Naxçıvan Muxtar Respublikası Səhiyyə Nazirliyinin iş planına uyğun olaraq, noyabr ayında da bu istiqamətdə ardıcıl tədbirlər həyata keçirilmişdir. Ötən ay təhsil müəssisələrində şagirdlərin kütləvi profilaktik müayinəsi davam etdirilmiş, müayinələr başlanandan bəri 36699 nəfər müayinədən keçmiş, 3855 uşaqda müxtəlif patologiyalar aşkar olunaraq müvafiq profilaktik tədbirlər görülmüşdür.***

V-XI sinif şagirdləri arasında ilkin vərəm intoksikasiyasını aşkarlamaq məqsədilə 23430 nəfər üzərində tuberkulin sınağı aparılmış, 5624 şübhəli, 2347 müsbət, 137 hiperergik reaksiyalı uşaq aşkar olunmuşdur. 123 uşaq Ağciyər Xəstəlikləri Dispanserində, 118 uşaq səyyar flüoroqrafik müayinədən keçirilmişdir.

Naxçıvan Muxtar Respublikası Səhiyyə Nazirliyinin iş planına uyğun olaraq, cari ildə də qadın təhsil işçiləri arasında süd vəzi xərçəngini vaxtında aşkarlamaq üçün kütləvi profilaktik mammoqrafiya müayinələri aparılıb. Cari ilin yaz və payız mövsümlərində Şərur və Sədərək rayonlarında 1139 qadın təhsil işçisi Naxçıvan Muxtar Respublikası Onkoloji Mərkəzin həkimləri tərəfindən ultrasəs və mammoqrafiya müayinəsindən keçirilmişdir ki, onların da 219-u noyabr ayının payına düşür. Süd vəzində müxtəlif patologiyalar olan 16 qadın təhsil işçisi kompleks müayinələr üçün Onkoloji Mərkəzə dəvət olunmuşdur. Növbəti müayinələr gələn ilin mart ayından Ordubad rayonunda aparılacaq.

Mərkəzi Neftçilər Xəstəxanasının Kardiocərrahiyyə Mərkəzinin 9 nəfərlik heyəti tərəfindən Naxçıvan Diaqnostika-Müalicə Mərkəzində yerli tibb işçiləri ilə birlikdə 3 nəfərdə angioqrafiya, 8 nəfərdə açıq ürək əməliyyatı aparılmışdır.

Akademik M.A.Topçubaşov adına Elmi Cərrahiyyə Mərkəzinin tərkibində olan Uşaq Ürək Cərrahiyyə Mərkəzinin uşaq invaziv kardioloqu Elnur İmanov tərəfindən Diaqnostika-Müalicə Mərkəzində 14 uşaqda EXO müayinə, 1 uşaqda pulmonarbalonoplastika əməliyyatı yerinə yetirilmişdir.

Azərbaycan Milli Oftalmologiya Mərkəzinin oftalmoloqu Məhərrəm Həsənov tərəfindən Naxçıvan Muxtar Respublikası Göz Xəstəxanasında 27 nəfərdə müayinə, 9 nəfərdə əməliyyat aparılmışdır.

Ötən ay 8 həkim-kardioloq və neonatoloq Bakı şəhərində “Anadangəlmə ürək xəstəliklərində yeniliklər” mövzusunda keçirilən beynəlxalq konfransda, 2 həkim isə bu tədbirin tərkib hissəsi olan exokardioqrafiya kurslarında iştirak etmişdir.

Ahıl vətəndaşların sosial müdafiəsini gücləndirmək üzrə Dövlət Proqramının icrası istiqamətində görülən işlərin davamı olaraq, noyabr ayı ərzində muxtar respublika üzrə 25 nəfər Bakı şəhərindəki Şağan qəsəbəsində yerləşən Əlillərin Müalicə Pansionatına, 34 nəfər Mərdəkan qəsəbəsində yerləşən Müharibə və Əmək Veteranları Pansionatına, 10 nəfər müxtəlif xəstəxanalara müalicəyə göndərilmişdir.

***Naxçıvan Muxtar Respublikası Səhiyyə Nazirliyinin mətbuat xidməti***

# Daxili İşlər Nazirliyinin cüdoçularının uğurlu çıxışı

***Bu günlərdə Bakı şəhərində keçirilən cüdo üzrə Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin respublika birinciliyinə yekun vurulub. Ölkənin 16 komandasının mübarizə apardığı birincilikdə Naxçıvan Muxtar Respublikası Daxili İşlər Nazirliyinin komandası da iştirak edib.***

Daxili İşlər Nazirliyinin “İdman” Cəmiyyətinin rəisi Cavanşir Salayevin rəhbərliyi ilə 7 cüdoçudan ibarət komandamız muxtar respublikaya uğurlu nəticə ilə qayıdıb. Belə ki, birincilikdə Daxili İşlər Nazirliyinin komandası, ümumilikdə, 6 medal qazanıb ki, bunların biri qızıl, ikisi gümüş, üçü isə bürünc medal olub. 60 kiloqram çəki dərəcəsində mübarizə aparan Rəşad Həsənov bütün rəqiblərini məğlub edərək turnirin baş mükafatına layiq görülüb. Elşən Qasımov və Elvin Əliquliyev isə yarışın gümüş medal mükafatçıları olublar. 60 kiloqram çəki dərəcəsində Qartal Əliyev, 66 kiloqramda Mahir Babayev və 100 kiloqramda Kamil Salayevin qazandıqları medalın əyarı bürünc olub.

Bu nəticədən sonra qazandığı medalların sayına görə Naxçıvan Muxtar Respublikası Daxili İşlər Nazirliyinin komandası 6 medalla birinciliyi üçüncü yerdə başa vurub.

Yarışın sonunda qaliblərə Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin diplomları, kubok və qiymətli hədiyyələri təqdim olunub.

# Paralimpiyaçılarımız ümumrespublika yarışından qayıdıblar

Naxçıvan Muxtar Respublikası Paralimpiya Federasiyasının idmançıları Bakıda keçirilən əlil idmançıların stolüstü idman növləri üzrə 4-cü ümumrespublika yarışında uğurla çıxış ediblər. Nazim Süleymanov (nərd), Həbib Mustafayev (şahmat), Tural Hüseynov, Sərvər Əliyev (hər ikisi qol gücü) və Təvəkkür Cəfərovdan (dama) ibarət 5 nəfərlik idmançı heyəti ilə ölkə paytaxtına yollanan paralimpiyaçılarımızdan Təvəkkür Cəfərov uğurlu çıxışı ilə diqqəti cəlb edib. Dama yarışlarında idmançımız yalnız bir rəqibindən geri qalıb və yarışı ikinci pillədə başa vurub. Yarışın reqlamentinə əsasən, turnirdə iştirak edən idmançıların hər birinə pul mükafatı və təşəkkürnamə təqdim olunub.

Fərqlənən idmançılara isə təşkilatçılar tərəfindən xüsusi mükafatlar və diplomlar verilib.

✍ **Ceyhun MƏMMƏDOV**

ŞƏRQ qapısı
Baş redaktor:
TURAL SƏFƏROV

Ünvan: AZ-7000,
Naxçıvan şəhəri, “Təbriz” küçəsi, 1.
Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: serqqapisi@nakhchivan.az

Qeydiyyat №: 575
Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Nömrəyə məsul: Əli Cabbarov
Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.
Tiraj: 4020. Sifariş № 1015